# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## 3 sentyabr 1991-ci il: Xalqın taleyini dəyişdirən tarix



8

SƏS

№ 158 (7326)

3 sentyabr 2025-ci il.
Qiymәti 60 qәpik

# Çin-Azərbaycan əməkdaşlığı: potensial və perspektivlər nə vəd edir?



2

# Yeni BMT yaradılır: ŞƏT sammitinin pərdəarxası




4

Yeni tədris ili yaxınlaşır: Məktəblərdə hazırlıqlar hansı mərhələdədir?



13

Dövrün bəlası: xroniki yorğunluq sindromu



15

"Qarabağ gələcəkdə perspektivli turizm bölgəsi olacaq"




16

Türkiyə eksperti: Orta və Zəngəzur dəhlizləri regionun strateji gələcəyini müəyyənləşdirir



4

Göydələnlər, göydələnlər...



12

# Çin-Azərbaycan əməkdaşlığı: potensial və perspektivlər nə vəd edir?

***Azərbaycan Prezidenti İlham Əliyevin Çində işgüzar görüşləri davam edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Çinin Tiencin şəhərində "China National Chemical Engineering" (CNCEC) şirkətinin sədri Mo Dinqqı ilə görüşüb. Söhbət zamanı Azərbaycanla şirkət arasında neft-kimya sənayesi, neft emalı fəaliyyəti və neft-kimya məhsullarının istehsalı sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı. "China National Chemical Engineering" şirkətinin sədri Azərbaycanda əlverişli investisiya mühitinin olduğunu qeyd etdi.***



Sonda Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) ilə Çinin Milli Kimya Mühəndisliyi və Tikinti Korporasiyası "Seven LTD" arasında imzalanmış Çərçivə Sazişinin





dövlətimizin başçısının və şirkətin sədrinin iştirakı ilə mübadiləsi oldu. Sənəd Azərbaycanda və üçüncü ölkələrdə birgə layihələrin icrasını nəzərdə tutur.



Azərbaycan Prezidenti İlham Əliyev dünən həmçinin Çinin Tiencin şəhərində "Powerchina group" şirkətlər qrupunun icraçı vitse-prezidenti Xı Yınfen ilə görüşüb. Görüşdə şirkətin ölkəmizdə uğurla fəaliyyət göstərdiyi qeyd olunub. Yaşıl enerji, ətraf mühitin mühafizəsi, su resurslarının idarəolunması, çirkab suların təmizlənməsi, elektroenergetika və yaşıl hidrogen layihələri, tikinti, avadanlıq istehsalı sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib.

Eyni zamanda, Günəş və külək elektrik stansiyalarının inşası, "ağıllı enerji sistemləri"nin inteqrasiyası və yerli mütəxəssislərin hazırlanması üzrə əməkdaşlıqla bağlı perspektivlərə dair fikir mübadiləsi aparılıb.

Azərbaycan-Çin iqtisadi əməkdaşlığı yüksələn xətlə davam edir. Təqdirəlayiq haldır ki, Çinlə Azərbaycan arasında qarşılıqlı iqtisadi əməkdaşlıq və siyasi tərəfdaşlıq yüksələn xətlə inkişaf edir. Azərbaycan-Çin ikitərəfli ticarət dövriyyəsi son illər xeyli yüksəlib. Belə ki, 2015-ci ildə ticarət dövriyyəsi 561 milyon dollar təşkil edirdisə, 2020-ci ildə dövriyyə 2,2 milyard dolar oldu. Cəmi 5 ildə dövriyyə 4 dəfə artmışdı.

Son 5 ildə isə artım davam edib. Çinlə ticarət əməliyyatlarının həcmi artıq 3,7 milyarda çatıb. Potensial isə bundan dəfələrlə böyükdür. Çindən idxal (2,45 milyard) ümumi idxalımızın 18 faizini təşkil edir və keçən ilin ilk yarimili ilə müqayisədə 25 faiz artıb. Çinə ixracımız isə 4,5 dəfə artaraq 53 milyonu ötüb.Hələlik, Azərbaycanın xarici ticarətində Çinin payı təxminən 8 faiz təşkil edir, lakin bunu bir neçə dəfə artırmaq üçün real imkanlar vardır.

Azərbaycanda Çin kapitalı ilə 375 şirkət açılıb, artıq onlardan 298-i aktiv işləyir. İndiyədək Çin şirkətləri Azərbaycana 1 milyard dollardan çox investisiya yatırıblar. Azərbaycanın Çin iqtisadiyyatına yatırdığı investisiyaların həcmi isə 1.5 milyard dollardan çoxdur.

ÇXR tərəfindən irəli sürülən məşhur "Bir kəmər - bir yol" qlobal nəqliyyat dəhlizi layihəsini ilk dəstəkləyən ölkələrdən biri Azərbaycan olub. Cənab Prezidentin 2015-ci ildə Çinə rəsmi səfəri zamanı "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanıb.

Cari ilin iyul ayından Azərbaycan vətəndaşları üçün Çinə vizasız rejimin tətbiqi isə turizmə və biznes sahələrində inkişafa təkan verməkdədir. Azərbaycanın müəllifi olduğu Bakı-Tbilisi-Qars dəmiryolu və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı "İpək Yolu İqtisadi Kəməri"nin tərkib hissəsi kimi mühüm yer tutur və ölkəmiz bu nəqliyyat marşrutları ilə malların Çindən Avropaya, Avropadan isə Çinə gətirilməsi üçün ən qısa yoldur. 2015-ci ildən etibarən Çindən ilk konteyner qatarı Xəzər dənizindən keçməklə Azərbaycana gəlib və 2018-ci ildən Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə yükdaşımalar həyata keçirilir. Bu gün Çin Milli Neft Korporasiyası, ümumilikdə Çin şirkətləri Azərbaycanın karbohidrogen ehtiyatlarının işlənilməsində fəal iştirak edirlər. Bu sahəyə böyük sərmayə qoyurlar. Çin şirkətlərinin neft layihələrində iştirakı Azərbaycanda neft sənayesinə mühüm təsir göstərir.

Çinlə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial var. Əvvəla, Çin dünyanın 3 fövqəldövlətindən biri olmaqla, BMT Təhlükəsizlik Şurasının veto hüququ olan 5 daimi üzvündən biridir. Dünyanın ən güclü iqtisadiyyatına malikdir. Əbəs yerə Çini "dünyanın fabriki" adlandırmırlar. Ən yüksək texnologiyalardan tutmuş ən adi məhsullara qədər istehsal edən ölkədir. Biz bu ölkədən təkcə istehsal malları yox, istehsal avadanlıqları almaqda da maraqlı olmalıyıq. Ölkəmizdə xammal problemi yoxdur. Dünya bazarına hazır məhsullar çıxarmaq üçün sadəcə texnologiyamız çatmır. Amerika, Rusiya, Britaniya, Almaniya, Yaponiya sahib olduqları istehsal texnologiyalarını verməkdə maraqlı deyillər, Çin isə maraqlıdır. Ona görə də Çinlə iqtisadi əməkdaşlıq texnologiyaların idxalı üçün ən əlverişli imkandır. Qərb ölkələrindən "od" qiymətinə aldığımız istənilən texnikanı və texnologiyanı Çindən çox ucuz ala bilərik.

Biz Çinlə müxtəlif sahələrdə birgə müəssisələr də yaratmalıyıq. Çin texnologiyası ilə məhsullar ucuz başa gəlir, istehsal həcmi də, keyfiyyəti də yaxşı olur. Nüfuzlu Çin şirkətlərinin məhsullarının burada istehsalını təşkil edə bilsək, onların dünya bazarına rahat çıxışı olar və yaxşı da satılar. Beynəlxalq iqtisadi araşdırma mərkəzləri yaxın vaxtlarda Çinin iqtisadi sferada təkbaşına hegemonluğu ələ alacağını deyirlər. Bu halda bütün dünya iqtisadi cəhətdən Çindən asılı vəziyyətə düşəcək.

Böyük İpək Yolu layihəsinin müəllifi kimi Çin Avrasiyanı bir xətdə birləşdirməyə və böyük ticarət kanalları yaratmağa başlayıb. Burada trilyonlarla dollarlıq dövriyyədən söhbət gedir. Ölkəmiz strateji regionda yerləşdiyindən İpək yolunun bir qanadı üzrə öz mövqeyindən yararlanaraq yaxşı gəlirlər əldə edəcək. Çinlə əməkdaşlığın həm iqtisadi, həm də siyasi dividendləri olacaq. Çinin dünya siyasətinə təsiri getdikcə artır. Onun tam dəstəklədiyi və hərtərəfli əməkdaşlıq etdiyi ölkə inkişafını sürətləndirəcək. Biz Çinin regionda əsas iqtisadi tərəfdaşına çevrilməklə böyük dividentlər əldə edə bilərik.

Son 20-30 ildə Çin iqtisadi inkişafını daha da artırdı. Ümumi Daxili Məhsulun həcminə görə, dünyanın 1-ci iqtisadiyyatına çevrildi. Yüksək texnologiyalardan tutmuş ən adi mallara qədər Amerika və Avropa firmalarını dünya bazarından sıxışdırıb çıxartdı. Çinin Dünya Bankının kreditlərinə ehtiyacı yoxdur. Çin özü bir çox ölkələrə kredit verir. ABŞ-in özünün Pekinə trilyonlarla borcu var. Bir sıra beynəlxalq bankların yaradılması məhz Çinin adı ilə bağlıdır. Hazırda Pekin dünyanın ən böyük investorudur.

Çin son dövrlərdə bir çox Afrika və Asiya ölkələrinə külli miqdarda investisiya qoyub. Bütün cəhdlərə baxmayaraq, bu ölkənin inkişafını dayandırmaq Amerikaya müyəssər olmadı. ABŞ tərəfindən idarə olunan beynəlxalq təşkilatların yeganə məqsədi Amerika və Avropanın maraqlarını, mənafelərini təmin etməkdir. Həmçinin, digər dünya ölkələrinin inkişafının qarşısını almaq, onları ucuz xammal ölkəsi kimi saxlamaq və sərvətlərini talayıb Qərbə daşıtdırmaqdır. Lakin bu siyasət artıq ifşa olunub və iflasa uğrayıb. Ölkələr alternativ təşkilatlar, fondlar, banklar yaradaraq, öz aralarında iqtisadi əməkdaşlığı və ticarəti artıraraq Qərbdən asılılığını azaldır və nəzarətdən çıxırlar. Dünyanı uzun müddət belə talamaq mümkün ola bilməzdi. Nə vaxtsa bu, başa çatmalıydı. Bu işdə Çinin liderlərindən olduğu təşkilatlar- BRİCS və ŞƏT çox böyük imkanlara malikdir. Dünyanın güc mərkəzi dəyişir və Qərbdən Şərqə keçir.

Görünən odur ki, artıq proses başlayıb. Tezliklə dünyanın iqtisadi, siyasi və sosial mənzərəsi dəyişəcək. Biz də bu prosesdən qazanclı çıxmaq üçün bütün imkanlara malik. Xammal ölkəsindən sənaye ölkəsinə çevrilməklə böyük iqtisadi inkişaf təmin edə bilərik və bu da dövlətimizin dünyada nüfuzunu və qüdrətini dəfələrlə artırar.

***Elçin Bayramlı***

# Böyük Qayıdış strategiyası: yenidən dirçələn Kəlbəcər!

## Prezident İlham Əliyev: "Kəlbəcər şəhəri indi dünyanın ən gözəl mənzərəli şəhərlərindən birinə çevrilir"



Genişmiqyaslı işlər, sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində Azərbaycan siyasi və makroiqtisadi baxımdan sabit, təhlükəsiz ölkə, regionun siyasi, iqtisadi və mədəni mərkəzi, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısına çevrilib. Bütün bunlarla yanaşı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, dünya kosmos ailəsinin üzvü, mühüm tranzit qovşağı kimi beynəlxalq aləmdə tanınır. Əlbəttə ki, dünya dövlətləri ilə əməkdaşlıq və dostluq münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir. Güclü dövlət və qazandığımız uğurlar bizə Zəfərimizi yaşatdı. 30 ilə yaxın işğalda olan torpaqlarımız Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olundu. Azərbaycanın həm hərb meydanında, həm də diplomatiya sahəsində Ermənistanı diz çökdürməsi dövlətimizin gücünün göstəricisidir. Bütün dünya Ordumuzun gücünü, işğalçı Ermənistanın məğlubiyyətini gördü. Azərbaycan xalqı başda olmaqla, bütün türk dünyası bu tarixi Zəfəri yaşadı. Qarabağ Zəfəri sayəsində regionda yaranmış yeni geosiyasi vəziyyət təkcə region dövlətlərinə deyil, bütün Avrasiya məkanında sülh və inkişafa yol açır.

Bugünki günümüzün reallığı, əsas hədəf Qarabağın bərpası və Böyük Qayıdış strategiyasını reallaşdırılmasıdır. Azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, öz yurd-yuvalarından didərgin düşən soydaşlarımızın evlərinə qaytarılması əsas məsələlərdəndir. Azərbaycan Prezidenti İlham Əliyevin müdrik, uzaqgörən siyasətinin nəticəsidir ki, işğaldan azad olunan ərazilərə etdiyi səfərlər zamanı həmin yerlərdən verdiyi mesajlar, açılışı olan obyektlər, yaradılan infrastruktur layihələri deməyə əsas verir ki, böyük quruculuq işləri nəticəsində bu ərazilərdə artıq yeni həyat başlanıb. Artıq doğma Vətənə, doğma şəhərə 32 ildən sonra əzəli sakinlər qayıdırlar. Azərbaycan tarixi ədaləti bərpa etdi, Kəlbəcər şəhərində 1-ci yaşayış kompleksi ərazisində fərdi və çoxmərtəbəli evlərə köçən sakinlərin rahatlığı təmin edilib. "Dövlət sizin üçün burada gözəl şərait yaradıb. Kəlbəcər şəhəri indi dünyanın ən gözəl mənzərəli şəhərlərindən birinə çevrilir. Siz artıq birinci yaşayış kompleksində evlərlə təmin olunursunuz, amma inşaat işləri bununla bitmir. Bu gün təməlini qoyduğum növbəti yaşayış komplekslərində yaxın gələcəkdə sizin qohumlarınız, dostlarınız gəlib yerləşəcək. Birinci mərhələdə "Böyük Qayıdış" Proqramı çərçivəsində Kəlbəcər şəhərində dörd yaşayış kompleksinin inşası nəzərdə tutulur və bu binalarda 10 mindən çox insan yaşayacaq. Təbii ki, lazım olan bütün digər infrastruktur layihələri də icra edilibdir. İşıq, su, təbii qaz çəkilib, yollar salınıb, minalardan təmizləmə işi aparılıb. İndi Kəlbəcər şəhərində gözəl məktəb tikilir və gələn il istifadəyə veriləcək. Ancaq builki dərs ilini kəlbəcərli uşaqlar modul tipli məktəbdə oxuyacaqlar", - deyə Azərbaycan Prezidenti İlham Əliyev Kəlbəcər şəhərində 1-ci yaşayış kompleksinin ərazisində fərdi və çoxmərtəbəli evlərə köçən sakinlərlə görüşü zamanı bildirib.

### REGİONDA YARADILAN ƏN BÖYÜK YAŞIL ENERJİ MƏNBƏYİ

Böyük Qələbənin nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir. Sözügedən strategiya yeni infrastrukturun yaradılması ilə yanaşı, işğaldan azad olunmuş ərazilərin ümumən regionun yeni inkişaf modelinə çevirməkdən ibarətdir. Əlbəttə ki, bu gün işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri planlı şəkildə həyata keçirilir. Yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir. Bu gün işğaldan azad olunan digər ərazilərimiz kimi, Tərtər çayı üzərində yerləşən "Azərenerji" ASC-nin 22,5 MVt gücündə olan "Yuxarı Vəng" Su Elektrik Stansiyasının tikilməsi Vətən müharibəsində Qələbəmizdən sonra regionda yaradılan ən böyük yaşıl enerji mənbəyidir. Belə ki, təkcə bu SES-də istehsal edilən yaşıl enerji növbəti 5 il ərzində Kəlbəcər rayonunun elektrik enerjisi tələbatını tam ödəyə bilər. Ümumi gücü 40 meqavat olan "Kəlbəcər" SES silsiləsi azad edilən ərazilərdə 42 meqavatlıq "Zəngilan" SES silsiləsindən sonra tikilən ikinci böyük silsilədir.

"Yuxarı Vəng" SES-ə su iki mənbədən - "Nadirxanlı" SES-in çıxışı və Tutqu çayı üzərində inşa edilən baş suqəbuledici qurğudan daxil olur. Müasir avadanlıqla təchiz edilən stansiyada 110 kilovoltluq Açıq Paylayıcı Qurğu tikilib və 24 damarlı optik kabel xətti çəkilib. Bununla da stansiya mərkəzləşmiş SCADA sisteminə inteqrasiya olunmaqla yanaşı, ən müasir rəqəmsal idarəetmə sistemləri ilə təchiz olunub və burada lazımi kibertəhlükəsizlik tədbirləri görülüb.

Layihə çərçivəsində həyata keçirilən tikinti-quraşdırma işlərində ətraf mühit amilləri nəzərə alınıb. Belə ki, çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısının alınması və onların çay ekosistemində saxlanılması üçün xüsusi hidrotexniki qurğular layihələndirilərək tikilib. "Yuxarı Vəng" SES-də il ərzində 66 milyon kilovat-saatadək yaşıl enerjinin istehsal olunması nəzərdə tutulur. Bu da 15 milyon kubmetr təbii qaza qənaət edilməsi, 27 min tondan çox karbon emissiyasının qarşısının alınması deməkdir. Bu layihə BMT-nin iqlim dəyişikliyi ilə mübarizə və yaşıl enerjiyə keçidin sürətləndirilməsi baxımından əhəmiyyətlidir. "Yuxarı Vəng" SES "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində həyata keçirilən əhəmiyyətli təşəbbüslərdən biri olmaqla, Azərbaycanın enerji sektoru ilə bağlı beynəlxalq səviyyədə qəbul edilən ekoloji standartlara uyğun icra edilib və ölkəmizin yaşıl enerji inkişafına sadiqliyini göstərən bir nümunədir.

### MDB ÖLKƏLƏRİ ARASINDA BİRİNCİ YERİ TUTAN TUNEL

Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq sıfırdan yeni şəhər və kəndlər salır. Böyük Qələbənin nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir. Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kəlbəcərə növbəti səfəri çərçivəsində Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda görülən işlərlə tanış olublar. Dövlətimizin başçısı bu yolun 13,5-ci kilometrliyində inşa edilmiş və uzunluğu 11,7 kilometr olan Murovdağ tunelinin texniki açılışını edib. 2021-ci ilin avqustunda bu yolun təməlqoyma mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər. Dövlətimizin başçısının tapşırığına əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən ən mühüm infrastruktur layihələrindən biri də uzunluğu 82 kilometr olan Toğanalı-Kəlbəcər-İstisu avtomobil yoludur. Bu yolun 56 kilometrini Toğanalı-Kəlbəcər hissəsi, 26 kilometrini isə Kəlbəcər-İstisu hissəsi təşkil edir. Avtomobil yolunun 13,5-ci kilometrliyindən Murovdağ silsiləsi başlayır. Beləliklə, yolun ən mühüm hissəsi Murovdağ silsiləsindən keçir. Burada yüksəklik 1700 metrdən 3250 metrədək artır. Qış fəslində avtomobil yolunun təhlükəsiz istismarı üçün Murovdağ silsiləsinin altından tunelin tikintisi məqsədəuyğun hesab edilib. Murovdağ tuneli dünyanın ən uzun avtomobil tunellərindən biridir. Belə ki, uzunluğuna görə bu tunel dünyada 18-ci, Avropada 5-ci, MDB ölkələri arasında isə birincidir. Tunel iki gediş və iki gəliş olmaqla 4 hərəkət zolaqlı olacaq. Tuneldə qazma, həmçinin sağ və sol hissələri birləşdirən 38 keçid tuneli üzrə işlər artıq başa çatdırılıb. Layihə çərçivəsində Murovdağ tunelindən əlavə ümumi uzunluğu 2636 metr olan daha dörd tunel də tikilir. Bu tunellərdə əsas tikinti işləri, o cümlədən qazma, kəmər-beton və digər texniki işlərin çoxu artıq yekunlaşdırılıb. Bu avtomobil yolu Göygöl rayonunun Toğanalı kəndindən başlayaraq işğaldan azad edilmiş Kəlbəcərdən keçir və məşhur İstisu istirahət zonasına qədər uzanır. Yol rayon mərkəzi ilə yanaşı, bölgənin yaşayış məntəqələrinə rahat və təhlükəsiz nəqliyyat əlaqəsini təmin edəcək, kənd təsərrüfatının, turizmin inkişafına töhfəsini verəcək.

Belə çətin coğrafi şəraitdə bu cür strateji əhəmiyyətə malik layihənin icrası bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş rayonlarımızın qısa müddətdə bərpası, o cümlədən həmin bölgələrimizdə müasir yol-nəqliyyat infrastrukturunun yaradılması Azərbaycan dövlətinin diqqət mərkəzindədir.

### KƏLBƏCƏRDƏ YENİ YAŞAYIŞ KOMPLEKSLƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər şəhərində 3-cü və 4-cü yaşayış komplekslərinin təməlini qoyub.3-cü yaşayış kompleksinin ümumi ərazisi 7,6 hektar olacaq. Burada 4 və 5 mərtəbəli 29 bina tikiləcək. Kompleksdə 476 mənzilin inşası planlaşdırılıb ki, onlardan da 8-i birotaqlı, 176-sı ikiotaqlı, 169-u üçotaqlı, 123-ü isə dördotaqlı olacaq. Buraya köçürüləcək ailələrin rahatlığı və məişət məsələlərinin həlli üçün kompleksdə bütün zəruri infrastruktur qurulacaq. Belə ki, burada məişət və ticarət obyektləri, futbol meydançası, istirahət guşələri, söhbətgahlar, uşaq oyun meydançaları, velosiped yolları, yerüstü avtomobil dayanacağı yaradılacaq. Binalar daimi su, elektrik təchizatı və yüksəksürətli internetlə təmin ediləcək. Ərazidə geniş abadlıq və yaşıllıq işləri görüləcək.

Kəlbəcər şəhərində 4-cü yaşayış kompleksinin ərazisi 10 hektara yaxın olacaq. Buraya ümumilikdə 807 ailənin köçürülməsi nəzərdə tutulur. Yaşayış kompleksində 128 birotaqlı, 304 ikiotaqlı, 293 üçotaqlı, 82 dördotaqlı olmaqla 807 mənzil inşa ediləcək. Burada 4 mərtəbəli 26 binanın inşası planlaşdırılır. Binaların 1-ci mərtəbəsində məişət və ticarət obyektləri yaradılacaq. Yaşayış kompleksində sakinlərin rahatlığı və asudə vaxtlarının səmərəli təşkili üçün idman meydançaları, velosiped yolları salınacaq, istirahət guşələri, söhbətgahlar, uşaqlar üçün oyun guşələri inşa olunacaq. Binaların hamısı daimi su, elektrik enerjisi və yüksəksürətli internetlə təchiz ediləcək. Ərazidə, həmçinin geniş miqyasda yaşıllıq zonalarının salınması nəzərdə tutulur.

Dayanıqlı sülhə, tərəqqiyə əsaslanan Azərbaycan Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması istiqamətində kifayət qədər layihələri həyata keçirib və bu davamlıdır. Eləcə də, nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülüb. Qısa bir zamanda Böyük Qayıdışın ilk karvanı olan Ağalıya edilən köç, eləcə də, Şuşada, Füzulidə və digər ərazilərdə görülən işlər bunu deməyə əsas verir.

Birinci pilot layihə olan "Ağıllı kənd" layihəsi Zəngilanda icra edildi, Beynəlxalq hava limanlarının - Füzulidə Beynəlxalq hava limanının, daha sonra Zəngilan və Laçında beynəlxalq hava limanlarının istifadəyə verilməsi Azərbaycanın nəhəng quruculuq işlərinin həyata keçirməsindən xəbər verir. Bu, Azərbaycanın gücünün göstəricisidir. Beynəlxalq hava limanlarının inşa olunması, 100 kilometrlərlə dəmir yolunun çəkilməsi regionun logistik simasının tamamilə dəyişdirilməsində əhəmiyyətlidir. Azərbaycan bu gün quruculuq meydanında imza atdığı lahiyələri ilə sözünü deyir. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir. İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası, dayanıqlı inkişafının və əhalinin yüksək həyat səviyyəsinin təmin olunması üçün zəruri infrastrukturun yaradılması istiqamətində ardıcıl tədbirlər görülür. Məlumdur ki, Azərbaycan Zəfər qazandıqdan sonra işğaldan azad edilmiş ərazilərdə müxtəlif yaşayış məntəqələri arasında, eləcə də bu məntəqələri ölkənin digər şəhər və rayonları ilə birləşdirən nəqliyyat infrastrukturu formalaşdırılmağa başlanıldı. Əlbəttə ki, strateji əhəmiyyət kəsb edən məsələlərin çevik həllinə xidmət edən peşəkar idarəetmə sisteminin mövcudluğu işlərin sürətlə və səmərəli həyata keçirilməsində mühüm əhəmiyyət kəsb edir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası nəticəsində nəzərdə tutulan hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək ərazilərdə görüləcək işlər əhalinin təhlükəsizliyin təmin olunmasına, eləcə də etibarlı, keyfiyyətli və dayanıqlı infrastrukturla təminatın həyata keçirilməsinə su, qaz, elektrik, istilik və s. infrastrukturun yenidən qurulmasına və s. yönəldilib. Bu Dövlət Proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınıb. Bu sənəd əhalinin doğma torpaqlarına geri qayıdışını məsələlərini, məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək, məşğulluq imkanlarını artırmaqla yanaşı, dayanıqlı sosial-iqtisadi inkişafı təmin etməklə hədəflənən məqsədlərin sürətli və keyfiyyətli icrasına öz töhfəsini verməkdədir.

***Zümrüd BAYRAMOVA***

# Yeni BMT yaradılır: ŞƏT sammitinin pərdəarxası

**Asif Şəfəqqətov: "500 illik hegemonluğunun aqoniyasını yaşayan yırtıcı Qlobal Qərb yeni dünya nizamının baş tutmaması üçün hər riskə getməyə hazır olacaq- siyasi terror aktlarından tutmuş nüvə təxribatına qədər"**

***Şanxay Əməkdaşlıq Təşkilatının Tyanjin sammiti nə ilə yadda qaldı? Bu haqda müxtəlif şərhlər və rəylər var. Lakin əsas məqamlar tamam başqadır. Siyasi analitik Asif Şəfəqqətov Pərdəarxası məqamlara aydınlıq gətirir.***

"Artıq əksər ölkələr mövcud dünya nizamından narazıdır. Əslində, heç bir nizam yoxdur. Dünya nizamının isə formal "hakimi və polisi" BMT-dir. İş o yerə çatıb ki, İsrail BMT-nin Baş katibini persona-non-qrata elan edir, BMT nümayəndələrinin öz ərazisi olmayan Qəzzaya gəlməsini qadağan edir, BMT tabeliyində olan humanitar təşkilatların nümayəndələrini məqsədli şəkildə atəşə tutur və öldürür - BMT isə heç nə etmir. BMT bütün dünyanın gözləri qarşısında Qəzzada soyqırımı törədən İsrailə qarşı heç bir tədbir görə bilmir. Faktiki olaraq, ABŞ-ın alətinə çevrilib...

2 ildən çoxdur ki, BMT-ni əvəz edəcək yeni qurumun yaradılması xüsusən Qlobal Şərqdə siyasi müzakirələr mövzusuna çevrilib. Lakin yeni dünya nizamı və bu nizamın qoruyucusu olan formal təşkilat elə-belə yarana bilməz. Bunun üçün dünyanın qəbul edəcəyi qalib ölkələr (supergüclər) olmalıdır.

ŞƏT-in Tyanjin sammitində bu istiqamətdə ilk əməli addım atıldı. Faktiki olaraq yeni BMT-nin yaradılması prosesinə start verildi. Bu prosesə rəhbərlik edəcək ölkələr Çin, Rusiya və Hindistandır (Üçlük). Məncə, Alyaska sammitində Putin Trampa təklif edib ki, ABŞ da bu prosesə qoşulsun, lakin bunu ya Tramp istəməyib (çünki bu halda ABŞ-ın hegemonluğunun bitdiyini qəbul etməlidir), ya da ABŞ "dərin dövləti" imkan verməyib.

Bundan sonra Üçlük prosesə ABŞ-sız başlamağa qərar verib. Bu proses 5-10 il çəkə bilər. Məncə, Üçlük hesab edir ki, 5-10 il ərzində ya ABŞ onlara qoşulacaq, ya da o qədər zəifləyəcək ki, onun qoşulmasına ehtiyac qalmayacaq"- analitik deyir.

Bəs bu proses necə aparılacaq? İndi keçək məsələnin mahiyyətinə. Sammitdə Si ŞƏT-in qlobal idarəetmə təşəbbüsünü irəli sürdü. Sitat: "Mən qlobal idarəçilik təşəbbüsünü irəli sürmək, daha ədalətli və bərabərhüquqlu qlobal idarəetmə sistemini, həmçinin vahid taleli bəşəriyyətlə ortaq cəmiyyəti birgə qurmaq üçün bütün ölkələrlə işləmək istərdim".




Asif Şəfəqqətov bu təşəbbüsün mahiyyətinə diqqət çəkir: "Fikir verin, ŞƏT çərçivəsində yox, qlobal idarəetmədən danışılır! Təşəbbüs Putin və digər iştirakçılar tərəfindən dəstəkləndi. ŞƏT blok deyil - burada müxtəlif inkişaf səviyyəsinə, gələcəyə baxışa malik olan, müxtəlif sivilizasiyalara mənsub olan, hətta bir-biri ilə münaqişədə olan ölkələr var. Belə birlik yalnız BMT çərçivəsində olur".

ŞƏT haqqında qısa arayış:

2001-ci ildə Çin, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Rusiya və Tacikistan tərəfindən Şanxayda təsis olunub.

10 üzvü var - Belarus, Çin, Qazaxıstan, Qırğızıstan, Hindistan, İran, Özbəkistan, Pakistan, Rusiya, Tacikistan. Bundan əlavə 2 müşahidəçi üzvü var - Əfqanıstan, Monqolustan.

14 dialoq tərəfdaşı var - Azərbaycan, BƏƏ, Bəhreyn, Ermənistan, Kamboca, Küveyt, Qətər, Maldiv, Misir, Myanma, Nepal, Səudiyyə Ərəbistanı, Şri-Lanka, Türkiyə.

Analitik bu təşkilatın maliyyə, iqtisadi, hərbi strukturlarının yaradılmaqda olduğunu və nəticədə getdikcə dünya birliyinə çevrilə biləcəyini deyir: "BMT-nin birbaşa əməkdaşlıqda olduğu bank var - Dünya Bankı. ŞƏT-in strukturunda Banklararası Birlik qurumu var idi. Sammitdə isə qərara alındı ki, ŞƏT-in İnkişaf Bankı (ŞƏTİB) yaradılacaq. Bu bank qlobal (yəqin ki, infrastruktur) layihələri maliyyələşdirəcək.

BMT-nin çoxsaylı proqramları (layihələri) var. ŞƏT-də elan olundu ki, ŞƏT ŞƏTİB-dən kənar 100-dən çox layihəni maliyyələşdirəcək.

BMT-nin öz ordusu yoxdur, lakin sülhməramlı qüvvələri var - bunlar üzv ölkələrin silahlı qüvvələri əsasında yaradılır. ŞƏT-in bunun analoqu olan Regional Antiterror Strukturu var. Güman ki, onun bazasında sülhməramlı əməliyyatları koordinasiya edən qlobal struktur yaradılacaq.

BMT-nin digər orqanları və funksiyaları (məsələn, Təhlükəsizlik Şurası) təkrarlanmaya bilər, çünki onlar artıq effektsiz olduqlarını göstəriblər. Onların təkmilləşdirilməsi üzrə işlər davam etdiriləcək".

Bəs niyə ŞƏT qlobal idarətmə təşəbbüsünü məhz indi rəsmi müstəviyə çıxartdı? Analitikin fikrincə, Qlobal Şərq artıq 4-cü Dünya Müharibəsinin qalibləri olduqlarına əmindirlər: "Rusiya, Çin və Hindistanın ABŞ-ın təzyiqlərinə baş əyməməsi bunun əyani sübutu idi. Sammitin tarixini də elə seçiblər ki, ondan 2 gün sonra güc nümayişi - Qələbə hərbi paradı üçün bəhanə olsun. Qaliblər "əzələlərini" göstərməlidirlər axı dünyaya.

Hələlik görünən budur ki, Qlobal Şərq və Qlobal Cənub ŞƏT-in təşəbbüsünü ümidlə qarşılayır. 500 illik hegemonluğunun aqoniyasını yaşayan yırtıcı Qlobal Qərb isə ŞƏT sammitini qəzəb və narahatlıqla şərh etdi. Küncə qısılmış yırtıcı daha təhlükəli olur. Yeni dünya nizamının baş tutmaması üçün bu yırtıcı qarşıdakı 5 ildə hər riskə getməyə hazır olacaq- siyasi terror aktlarından tutmuş nüvə bombasının partladılmasına qədər".

***Elçin Bayramlı***

# ATƏT-in Nazirlər Şurasının qərarı Cənubi Qafqazda davamlı sülh istiqamətində yeni addımdır

ATƏT-in fəaliyyətdə olan sədri, Finlandiyanın xarici işlər naziri Elina Valtonen və ATƏT-in Baş katibi Feridun H.Sinirlioğlu Ermənistanın və Azərbaycanın birgə müraciətindən sonra Minsk Prosesinin və əlaqədar strukturların bağlanması barədə Nazirlər Şurasının qərarını alqışlayıblar. AZƏRTAC xəbər verir ki, bu barədə ATƏT-in rəsmi saytında yerləşdirilmiş məlumatda bildirilir. "Mən bir daha Ermənistana və Azərbaycana sülh və münasibətlərin normallaşdırılması istiqamətində əldə etdikləri tarixi razılaşmalara, onların tez bir zamanda həyata keçirilməsinə dair qətiyyətli qərarlarına görə səmimi təbriklərimi çatdırmaq istəyirəm. Mən onların birgə müraciətinə dərhal cavab verdim və bu prosesdəki mükəmməl əməkdaşlıqlarına görə tərəflərə səmimi minnətdarlığımı bildirmək istəyirəm. Həmçinin bu konsensusa nail olmaqda nümayiş etdirdikləri əməkdaşlıq ruhuna görə iştirakçı dövlətləri də alqışlayıram," - deyə nazir Valtonen qeyd edib.



OSCE Organization for Security and Co-operation in Europe

NEWSROOM BLOG EVENTS PARTNERSHIPS NETWORKS

HOME WHO WE ARE WHAT WE DO WHERE WE ARE INSTITUTIONS & STRUCTURES RESOURCES

Home > Newsroom > News and press releases > OSCE Ministerial Council decision marks new step towards sustainable peace in the South Caucasus

NEWSROOM

PRESS RELEASE SHARE English

OSCE Chairpersonship, OSCE Secretary General

**OSCE Ministerial Council decision marks new step towards sustainable peace in the South Caucasus**

VIENNA/HELSINKI 1 September 2025

VIENNA/HELSINKI, 1 September 2025 - The OSCE Chairperson-in-Office, Foreign Minister of Finland Elina Valtonen, and OSCE Secretary General Feridun H. Sinirlioğlu welcome the adoption of a Ministerial Council decision closing the Minsk process and related structures following a Joint Appeal from Armenia and Azerbaijan.

"I would like to once again extend my warmest congratulations to Armenia and Azerbaijan on their historic agreements towards peace and normalization of relations and their resolute decision to start their prompt implementation. I have responded without delay to their Joint Appeal and would like to express my sincere appreciation to the parties for their excellent co-operation in the process. I also would like to commend participating States for their

Newsroom

Stories

News archive

Media advisories

Media contacts

OSCE Live

Məlumatda bildirilir ki, ATƏT Nazirlər Şurasının qərarı Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən ABŞ Prezidenti Donald Trampın iştirakı ilə avqustun 8-də Vaşinqtonda imzaladıqları Birgə Bəyannamənin davamıdır. Nazirlər Şurasının qərarı ATƏT-in bütün 57 iştirakçı dövlətinin konsensusu ilə qəbul olunub. "Bu, diplomatiyanın onilliklər boyu davam edən münaqişə və etimadsızlıqdan sonra da nələrə nail ola biləcəyini göstərən tarixi bir hadisədir. Bu, tərəflərin ortaq məxrəcə gəlmək istiqamətində ortaq iradə nümayiş etdirdikdə razılığın mümkün olduğunu sübut edir", - deyə Baş katib Sinirlioğlu vurğulayıb.

# Türkiyə eksperti: Orta və Zəngəzur dəhlizləri regionun strateji gələcəyini müəyyənləşdirir



Çinin Tiencin şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) illik Sammiti bölgədə çoxqütblü əməkdaşlığın və yeni iqtisadi dəhlizlərin formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin "ŞƏT plyus" formatında keçirilən görüşdə səsləndirdiyi çıxışda Zəngəzur və Orta dəhlizlərin strateji önəmi xüsusi vurğulanıb. Bu dəhlizlər yalnız Azərbaycanın tranzit imkanlarını genişləndirmir, həm də regional və qlobal səviyyədə yeni iqtisadi və nəqliyyat əlaqələri üçün əlverişli zəmin yaradır. Tiencin görüşü çərçivəsində verilən mesajlar Azərbaycan ilə Türkiyənin regional tranzit və logistika şəbəkələrində strateji mövqeyini möhkəmləndirərək, Orta və Şimal-Cənub dəhlizlərinin birləşməsində mühüm rol oynaya biləcəyini göstərir.

Mövzu ilə bağlı AZƏRTAC-a açıqlama verən türkiyəli siyasi ekspert Əli Fuad Gökçə regionda formalaşan yeni geosiyasi reallıqları şərh edərək bildirib ki, Tiencin görüşü bir daha çoxqütblü dünyanın zəruriliyini ortaya qoydu. Onun sözlərinə görə, bu baxımdan Çin rəhbərliyinin təşəbbüsü ilə həyata keçirilən "Bir kəmər, bir yol" layihəsinin Orta Dəhlizi xüsusi əhəmiyyət daşıyır.

"Orta Dəhlizin daha səmərəli və az maliyyətli fəaliyyət göstərməsi üçün Zəngəzur dəhlizinin açılması vacibdir. Bu yol Azərbaycanla Türkiyə arasındakı əlaqələri, həmçinin Türkiyənin Orta Asiyanın türk dövlətləri ilə bağlarını möhkəmləndirəcək. Nəticədə, ticarət əlaqələrinin genişlənməsi türk dövlətlərinin iqtisadi gücünü artıracaq", - deyə Əli Fuad Gökçə vurğulayıb.

# Azərbaycan-Vyetnam: ikitərəfli əməkdaşlıqda birgə səylər

## Prezident: "Xoş ənənələrə əsaslanan Azərbaycan-Vyetnam əlaqələrinin inkişaf səviyyəsi məmnunluq doğurur"





Ərazi bütövlüyünü təmin etmiş və suveren Azərbaycan özünün beynəlxalq və iktərəfli əməkdaşlıq coğrafiyasını daha da genişləndirməkdədir. Ölkəmizin atan nüfuzu fonunda xarici siyasətin əsas istiqamətlərindən biri də Cənubi-Şərqi Asiya ölkələri, o cümlədən Vyetnamla əlaqələrin inkişafına böyük önəm verməsidir. Azərbaycanı və Vyetnamı yarım əsrdən artıq tarixə malik dostluq münasibətləri birləşdirir və 1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Min Azərbaycan SSR-ə səfər edib. 1983-cü ildə Azərbaycan xalqının Ümummilli Lideri, Vyetnamın böyük dostu Heydər Əliyevin başçılıq etdiyi sovet nümayəndə heyəti bu ölkəyə səfər edir. Həmin səfər keçmiş SSRİ-nin Vyetnamla münasibətlərinin inkişafı baxımından xüsusi əhəmiyyət daşıyırdı. Ulu Öndər Heydər Əliyev Vyetnamın birləşməsindən sonra bu ölkəyə səfər edən ilk yüksəkvəzifəli xarici dövlət rəsmisi idi. Əslində, həmin səfərin Vyetnam üçün olduqca böyük, başqa sözlə, həyati əhəmiyyəti var idi. Çünki əzablı Fransa işğalından, ABŞ ilə qanlı müharibədən sonra təzəcə sabitlik və inkişaf yoluna qədəm qoyan Vyetnam regionda gedən geosiyasi proseslər fonunda yenə ciddi təhdidlə üzləşmişdi. Belə bir məqamda dahi Heydər Əliyevin səfəri Vyetnam xalqı və hökuməti üçün böyük dəstək ifadə edirdi. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev milli maraqlara hörmət və beynəlxalq hüquq normalarına sadiqlik prinsipləri əsasında Vyetnamla münasibətlərin inkişafına da önəm verir.

"Xoş ənənələrə əsaslanan Azərbaycan-Vyetnam əlaqələrinin inkişaf səviyyəsi məmnunluq doğurur. May ayında Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi cənab To Lamın Azərbaycana dövlət səfəri ikitərəfli əlaqələrimizin inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır. Səfər çərçivəsində bir sıra istiqamətlər üzrə imzalanmış sənədlər, xüsusilə də "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat" Azərbaycan-Vyetnam əlaqələrini daha yüksək pilləyə qaldırdı". Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikasının Prezidenti Lıonq Kıonqa bu ölkənin müstəqilliyinin 80-ci ildönümü münasibətilə ünvanlandığı təbrik məktubunda yer alıb.

### "SAĞLAM TƏMƏLLƏR ÜZƏRİNDƏ QURULMUŞ DÖVLƏTLƏRARASI ƏLAQƏLƏRİMİZİ BUNDAN SONRA DA İNKİŞAF ETDİRMƏK ƏZMİNDƏYİK"

Prezident Lıonq Kıonqa və dost Vyetnam xalqına öz adından və Azərbaycan xalqı adından ən xoş arzularını çatdıran dövlətimizin başçısı məktubunda qeyd edib ki, böyük inkişaf yolu keçmiş Vyetnam bu gün bütün sahələrdə sanballı nailiyyətlər əldə edib və uğurlara imza atıb: "Hazırda ölkələrimiz arasında iqtisadiyyat, ticarət, mədəniyyət, təhsil, energetika, nəqliyyat və digər sahələr üzrə böyük əməkdaşlıq potensialı mövcuddur. Beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan səmərəli əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim. Biz sağlam təməllər üzərində qurulmuş dövlətlərarası əlaqələrimizi bundan sonra da inkişaf etdirmək əzmindəyik".

Prezident İlham Əliyev əmin olduğunu bildirib ki, dost xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Vyetnam arasında əlaqələrin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində birgə səylər bundan sonra da uğurla davam etdiriləcək.

İki ölkə arasında əməkdaşlığın inkişafında iqtisadi-ticari və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyasının fəaliyyəti əhəmiyyətli rol oynayır. Ölkələrimizin iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, kənd təsərrüfatı, humanitar, turizm, təhsil və sair sahələr üzrə əməkdaşlığın inkişafı üçün geniş perspektivlər var. İqtisadi-ticari münasibətlər təkcə iqtisadi artımı stimullaşdırmaq deyil, həm də qarşılıqlı faydalı tərəfdaşlıq üçün dayanıqlı zəmindir. 2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 223,93 milyon ABŞ dolları olub. Ölkələrimiz neft sahəsində də qarşılıqlı fəaliyyət göstərir. Azərbaycan-Vyetnam əməkdaşlığının əsas sütunlarından biri enerji sektorudur. Vyetnam uzun illərdir ki, Azərbaycan neftinin sabit alıcısıdır. Təkcə 2024-cü ildə Azərbaycan 77,9 milyon ABŞ dolları dəyərində 138,5 min ton xam neft və neft məhsulları ixrac edib, Vyetnam neft alışına görə neft alan ölkələr arasında 21-ci yerdədir. On ildən artıqdır ki, SOCAR və Vyetnamın ən böyük enerji şirkətləri "PetroVietnam" və "Vietsovpetro" neftin kəşfiyyatı, təchizatı və emalı sahələrində əməkdaşlığı inkişaf etdirirlər. 2019-cu ildə Vyetnamın "Binh Son Refinery and Petrochemical Company" ilə SOCAR arasında müqavilə imzalanıb. Neft sahəsində əməkdaşlıq möhkəm tarixi təmələ əsaslanır.

### İKİ XALQ ARASINDA MÖHKƏM DOSTLUQ KÖRPÜSÜ

Azərbaycanın Vyetnamla əlaqələri həm tarixi, həm də müasir dövr baxımından çox önəmlidir. Bu əlaqələr yalnız dövlət səviyyəsində deyil, həm də ədəbiyyat və mədəniyyət sahələrində hər iki xalq arasında möhkəm dostluq körpüsünü yaradıb. Hər iki ölkə müstəqil dövlətlər olaraq öz milli kimliklərini qoruyub saxlamaqla yanaşı, beynəlxalq əlaqələrini genişləndirmək məqsədilə müxtəlif sahələrdə əməkdaşlıq ediblər. Bu əməkdaşlığın ən mühüm sahələrindən biri ədəbiyyat və mədəniyyət sahəsi olub. Azərbaycanın ədəbiyyatını və mədəniyyətini tanıdan, Vyetnamın zəngin mədəni irsini nümayiş etdirən müxtəlif təşəbbüslər, qarşılıqlı tərcümələr və ədəbi mübadilə ölkələr arasındakı dostluq əlaqələrini daha da gücləndirib.

Ölkələr arasında digər sahələrlə yanaşı, mədəniyyət, humanitar və təhsil sahələrində əməkdaşlığın kökləri sovet dövrünə gedib çıxır, amma son illərdə daha da inkişaf edib. 1955-ci ildə Azərbaycan bəstəkarı Qara Qarayev Vyetnam müharibəsi haqqında ilk sovet-Vyetnam sənədli filmi üçün "Vyetnam süitası"nı bəstələyib. Azərbaycanlı rejissor Əjdər İbrahimov Vyetnamda kino məktəbinin yaradılmasında fəal iştirak edib, orada ustad dərsləri keçib. Sovet dövründə Azərbaycanda 5 minə yaxın vyetnamlı təhsil alıb, onların bir çoxu hazırda Vyetnamın dövlət orqanlarında məsul vəzifələr tutur. 2015-ci ildə Hanoyda Azərbaycan ali məktəblərinin məzunlarını birləşdirən Vyetnam-Azərbaycan Dostluq Assosiasiyası təsis olunub.

Mədəni-humanitar əməkdaşlıqdan danışarkən Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Vyetnamla bağlı işlərini vurğulamaq lazımdır. Vyetnamın Hazianq əyalətində ucqar yaşayış məntəqələrindən olan Ziap Çunq qəsəbəsində ibtidai məktəb binasının inşası Heydər Əliyev Fondunun xeyirxahlıq missiyasının göstəricisi olmaqla yanaşı, Azərbaycanın Vyetnam ilə münasibətlərə verdiyi əhəmiyyətin təzahürüdür. Vyetnam ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin bundan sonra da inkişafı üçün geniş perspektivlər və potensial mövcuddur.

"Ölkələrimiz ən müxtəlif sahələrdə əməkdaşlıq potensialını bundan sonra da inkişaf etdirmək üçün bütün imkanlara malikdir", - deyə çıxışlarının birində Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsinin əsas perspektivli istiqamətlərindən biri turizmin olduğunu diqqətə çəkib: "Bakı ilə Vyetnam şəhərləri arasında birbaşa hava əlaqəsinin yaradılması turizm proqramlarının inkişafı ilə paralel surətdə iki ölkənin vətəndaşlarının bir-birinin mədəniyyətinə və tarixinə marağının artmasına kömək edəcək. Müştərək mədəniyyət layihələrinin intensivləşdirilməsi, səhiyyə və ekologiya sahələrində humanitar missiyalarla bağlı proqramların və birgə təşəbbüslərin inkişafı - bütün bunlar ölkələrimiz üçün qarşılıqlı maraq doğuran istiqamətlərdir. Əlbəttə, təhsil sahəsi. Həmişə olduğu kimi, Vyetnamdan tələbələrin gəlmələrinə şad olacağıq." Tarixi təməllər üzərində qurulmuş bu əlaqələr, qarşılıqlı hörmət və ortaq maraqlar çərçivəsində yeni əməkdaşlıq imkanlarını gündəmə gətirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Universitetə yeni qəbul olunan gənclərin qarşılaşdığı çətinliklər

# BƏLLİ OLDU



## EKSPERT DANIŞDI

"Universitetə qəbul olmaq hər bir gənc üçün böyük bir uğurdur. Lakin bu uğurun arxasında çox ciddi çətinliklər gizlənir. Məktəb illərində yalnız imtahanı qazanmaq haqqında düşünən abituriyentlər universitet qapısından içəri girəndə, əslində, təhsildən daha çox sosial, iqtisadi və psixoloji problemlərlə üz-üzə qalırlar. Təəssüf ki, bu çətinliklərə qarşı dövlət və Elm və Təhsil Nazirliyinin vahid, ardıcıl və uzunmüddətli siyasəti yoxdur". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.



Kamran Əsədov sözlərinə belə davam edib: "Azərbaycan Dövlət Statistika Komitəsinin son məlumatlarına görə, hər il 55-60 min gənc ali məktəblərə qəbul olur. Onların təxminən yarıdan çoxu regionlardan Bakıya üz tutur. Paytaxtda kirayə qiymətlərinin 300-700 manat aralığında dəyişməsi tələbələrin ailələri üçün çox böyük yükdür. Bu isə təhsil haqqı ilə birlikdə tələbələrin oxumaqdan daha çox yaşamaq uğrunda mübarizə aparmasına səbəb olur. Halbuki, "Təhsil haqqında" Qanunun 13-cü maddəsində göstərilir ki, dövlət tələbələrin sosial müdafiəsini təmin etməlidir. Amma praktikada yataqxanaların sayı az, mövcud olanların isə şəraiti bərbaddır. Bir çox universitetin yataqxanası ümumiyyətlə yoxdur və tələbələr öz talelərinə buraxılır.

Uyğunlaşma problemi də ciddi məsələdir. Orta məktəbdə valideyn və müəllim dəstəyi ilə oxuyan gənclər universitetdə özlərini müstəqil idarə etməli olurlar. Yeni mühit, fərqli tədris sistemi, imtahanların yazılı formada olması, plagiat yoxlamaları və akademik dürüstlük prinsipləri onları çox vaxt çətin vəziyyətə salır. Dünya təcrübəsi göstərir ki, inkişaf etmiş ölkələrdə universitetlərin birinci kursunda tələbələr üçün xüsusi "adaptasiya proqramları" tətbiq olunur. Məsələn, Finlandiya və Almaniyada tələbələrə psixoloji dəstək, dərs metodikası ilə bağlı treninqlər, şəhəri tanımaq üçün bələdçilik xidmətləri təqdim olunur. Azərbaycanda isə belə proqramlar yoxdur, nəticədə tələbə ya öz gücü ilə uyğunlaşır, ya da təhsil keyfiyyətindən uzaqlaşır.

Nəqliyyat məsələsi də gündəlik stress yaradan amillərdəndir. Bakı kimi böyük şəhərdə ictimai nəqliyyatın sıxlığı, tıxaclar və metroda basırıq tələbələrin dərsə gecikməsinə səbəb olur. Nazirlik yalnız dərs proqramlarının "yenilənməsi" ilə məşğuldur, lakin tələbələrin real həyat şəraitinə təsir edən bu problemlərə dair heç bir təşəbbüs irəli sürmür. Təhsil Nazirliyi təhsilin keyfiyyətindən danışarkən, tələbələrin yaşadığı çətinlikləri unudur. Əslində isə keyfiyyət yalnız dərs proqramı ilə deyil, tələbənin psixoloji və sosial rifahı ilə ölçülür.

Maddi çətinliklərin bir başqa tərəfi də iş və təhsil arasında balansdır. Əksər tələbələr təhsil haqlarını ödəmək və kirayəni qarşılamaq üçün işləməyə məcbur qalırlar. Amma universitetlər part-time iş imkanları ilə bağlı heç bir dəstək mexanizmi yaratmır. ABŞ və Avropa universitetlərində tələbələrin kampus daxilində işləməsi üçün xüsusi proqramlar mövcuddur. Azərbaycanda isə tələbə ya tam gün işləyərək dərsdən qalır, ya da oxumaq üçün iş imkanlarını itirir. Bu isə həm təhsil keyfiyyətini, həm də gələcək karyera imkanlarını zədələyir.

Müsbət tərəf ondan ibarətdir ki, bütün bu çətinliklər tələbələri daha müstəqil, həyatla mübarizə aparan, öz yolunu tapmağa çalışan fərdlərə çevirir. Çox tələbə ailəsindən uzaq qalaraq maliyyə idarəetməsini, zaman planlamasını, sosial əlaqələr qurmağı öyrənir. Amma bu, dövlətin yaratdığı şəraitin deyil, gənclərin şəxsi iradəsinin nəticəsidir.

Psixoloji aspekt də xüsusi vurğulanmalıdır. Bir çox tələbə ailədən uzaq düşdüyü üçün depressiya, tənhalıq, motivasiya itkisi yaşayır. Qanunvericilikdə psixoloji xidmət nəzərdə tutulsa da, faktiki olaraq universitetlərin çoxunda psixoloqlar formal şəkildə fəaliyyət göstərir. Halbuki, Kanada və Avstraliyada hər universitetdə tələbələrin psixoloji rifahını dəstəkləyən mərkəzlər mövcuddur və onların fəaliyyəti ciddi nəzarətdədir. Azərbaycanda isə bu məsələ yalnız kağız üzərindədir.

Əslində dəyişməli olan odur ki, Elm və Təhsil Nazirliyi yalnız qəbul imtahanlarının nəticələri ilə öyünməkdən əl çəkməli, tələbələrin sosial və psixoloji həyatına dair də siyasət yürütməlidir. Tələbə yataqxanaları yenidən tikilməli, sosial paketlər genişləndirilməli, təhsil kreditləri əlçatan edilməlidir. Bununla yanaşı, universitetlərdə uyğunlaşma proqramları tətbiq olunmalı, psixoloji xidmətlər real fəaliyyət göstərməlidir. Əks halda, hər il qəbul olunan minlərlə tələbə yalnız kağız üzərində "təhsil alır", gerçəkdə isə gündəlik çətinliklərlə mübarizə aparaq vaxt və enerji itirir.

Dünya təcrübəsi göstərir ki, universitet həyatı yalnız dərs auditoriyası ilə məhdudlaşmır. Tələbənin yaşayışı, sağlamlığı, sosiallaşması və psixoloji dəstəyi təmin olunmadan təhsilin keyfiyyətindən danışmaq qeyri-mümkündür. Azərbaycanda isə bu istiqamətdə sistemli siyasət yoxdur, planlar açıqlanmır, proqnozlar verilmir. Nazirlik yalnız "tədris planlarını dəyişdik" deməklə kifayətlənir, amma tələbələrin həyat şəraiti və uyğunlaşma problemləri tamamilə diqqətdən kənarda qalır".

**Ayşən Vəli**



# "Siyasi, iqtisadi, diplomatik aspektlərdə çox ciddi mesajlar verildi"

"Şanxay Əməkdaşlıq Təşkilatı ciddi bir platformadır. Burada Azərbaycanın iştirakı, dəvət olunması, orada Azərbaycanın Prezidentinin çıxış etməsi çox vacibdir. Yəni, diplomatiyada, siyasətdə detallar önəmlidir, xırda məsələlər böyük nəticələr doğura bilir". Bu sözləri SİA-ya açıqlamasında Azad Vətən Partiyasının sədri Akif Nağı deyib. Onun sözlərinə görə, hər yerdə Azərbaycan Prezidentinə xüsusi diqqət oldu, xüsusi münasibət bəslənildi. Azərbaycan Prezidenti bu cür beynəlxalq platformalardan istifadə edib öz mövqeyini açıqlayır. Burada əsas olan ondan ibarətdir ki, Azərbaycan heç bir tərəfin təsiri altında deyil. Azərbaycan tam sərbəst, müstəqil siyasət yürüdür. Yəni, Qərblə də münasibətlər qurulur, eyni zamanda Şərqlə gedən proseslərdə də Azərbaycan kənarda qalmır. Çinin rəhbərliyi altında Amerikanın hegemonluğuna qarşı haradasa yaranmış bir qurumdur və burada Amerikaya qarşı əks mövqe formalaşdırılıb, güc mərkəzi yaratmağa çalışırlar, münasibətlər qururlar. Orada iqtisadi məsələlər, təhlükəsizlik, enerji məsələləri üzrə müəyyən istiqamətlər müəyyənləşdirilir. Ən azı G20 olmasa da, "10-luq", "20-lik" tərzində bir formatdır və daxil olan ölkələr bu şəkildə əməkdaşlıq etməyə çalışırlar. Azərbaycan isə ABŞ ilə də strateji tərəfdaşlıq müqaviləsinə malikdir, eyni zamanda burada - Şanxay Əməkdaşlıq Təşkilatında da iştirak edir. Azərbaycan müstəqil şəkildə harada dövlət maraqları varsa, orada iştirak edir. Prezident İlham Əliyev də bu baxımdan iştirakını məhz dövlət maraqlarından çıxış edərək həyata keçirdi.



Çinlə münasibətlər yüksək səviyyədədir. Orada Azərbaycanın dostları da bir daha nümayiş olundu - Türkiyə ilə münasibətlər, Pakistan ilə münasibətlər ön planda idi. Azərbaycan bu platformanı həm də türk dünyası ilə bağlı əlavə bir tribuna kimi istifadə edir, öz mövqeyini ortaya qoyur. Çinlə münasibətlərə gəlincə, Prezident xüsusilə vurğuladı ki, son iki ildə Azərbaycan ilə Çin arasında münasibətlər yeni səviyyəyə qalxıb. Bu istiqamətdə də inkişaf davam edir. Təbii ki, burada Zəngəzur dəhlizi məsələsi də gündəmdə idi. Azərbaycan iqtisadi maraqlarını orada açıq şəkildə ortaya qoydu və bununla da hesablaşdılar. Orta dəhliz deyilən, Çinin də "Bir kəmər - bir yol" təşəbbüsünün bir hissəsi olan bu dəhliz Azərbaycan üçün mühüm əhəmiyyət daşıyır və Prezident bildirdi ki, bu dəhlizin reallaşması iştirakçı dövlətlərin hər biri üçün faydalı olacaq. Yəni Azərbaycan yalnız öz maraqları ilə deyil, ümumi əməkdaşlığın faydasını da əsaslandıraraq təqdim etdi".

Partiya sədri sözlərinə davam edərək bildirdi ki, bu səfər həm siyasi, həm iqtisadi baxımdan Azərbaycan üçün çox sərfəlidir və Azərbaycan siyasi iradəsini nümayiş etdirdi. Orada siyasi mövqeyini nümayiş etdirdi, heç kimdən çəkinmədiyini göstərdi: "Rusiya prezidenti ilə görüş alınmadı. Rusiya daha çox maraqlıdır, çünki Azərbaycan öz mövqeyindən geri çəkilmir. Azərbaycan Rusiya qarşısında şərtlər qoyur - təyyarənin vurulmasından tutmuş, digər məsələlərə qədər. Rusiya buna cavab vermədiyinə görə görüşdən qaçır. Qaçırlarsa, özləri bilər. Amma hər halda Azərbaycan bir daha müstəqil siyasətini nümayiş etdirdi. Bu mesajı verdi: Əgər Rusiya Azərbaycanın qarşısında bərabərhüquqlu əməkdaşlıq müstəvisinə keçməzsə, Azərbaycan da geri çəkilməyəcək. Eyni zamanda Azərbaycan siyasi səviyyədə regionda - Cənubi Qafqazda öz mövqeyini göstərdi.

Siyasi, iqtisadi, diplomatik aspektlərdə çox ciddi mesajlar verildi. Bünövrəsi qoyulan layihələr oldu, bir çox görüşlər keçirildi və bu hələ davam edir. Çinin paytaxtında keçiriləcək parada da Azərbaycan Prezidenti qatılacaq və orada da görüşlər keçiriləcək, məsələlər aydınlaşdırılacaq. Ümumilikdə hesab edirəm ki, bu səfər Azərbaycanın daxili və xarici siyasətinin nümayişi baxımından çox uğurlu oldu. Ayrı-ayrı dövlətlərlə və şirkətlərlə keçirilən görüşlərin hər birinin praktik əhəmiyyəti vardır. İdeoloji, nəzəri və praktiki baxımdan bu səfər çox uğurlu oldu".

**Ziya Hikmətoğlu**

# Payız modası və geyim trendləri

***Payız fəsli hər zaman dəbin yenilənməsi və geyim üslublarının dəyişməsi ilə səciyyələnir. İsti yay mövsümündən sonra təbiətdə baş verən rəng dəyişiklikləri, sərin hava şəraiti və insanların gündəlik həyat tərzindəki fərqliliklər geyim seçimlərinə birbaşa təsir göstərir. Bu dövrdə həm rahatlıq, həm istilik qorunması, həm də estetik görünüş əsas ön plana çıxır. Moda dünyası da hər payız yeni istiqamətlər təqdim etməklə insanların geyim zövqünü formalaşdırır, eyni zamanda psixoloji və sosial aspektlərə də təsir göstərir. SİA mövzu ilə bağlı araşdırma aparıb.***

Payız modası yalnız geyimlərdə yeni rəng və parçaların tətbiqi ilə məhdudlaşmır. Bu, həm də mədəniyyət, həyat tərzi və estetik düşüncənin dəyişməsi ilə bağlıdır. Rənglərin seçimi insanın emosional vəziyyətini ifadə edir, parçaların toxuması onun rahatlıq və təhlükəsizlik ehtiyaclarını qarşılayır, geyim formaları isə sosial status və fərdi üslubun göstəricisinə çevrilir. Xüsusilə qlobal moda evləri tərəfindən təqdim olunan kolleksiyalar yeni tendensiyaları müəyyənləşdirir və onlar qısa müddətdə həm gündəlik geyimlərdə, həm də xüsusi dəstlərdə öz əksini tapır.











Müasir dövrdə payız dəbi həm ənənəvi üslubları qorumağa, həm də yenilikləri cəsarətlə tətbiq etməyə çalışır. Bu fəsildə bir tərəfdən klassik üslublara - cins gödəkçələrə, yun köynəklərə, sadə palto və ayaqqabılara maraq artdığı halda, digər tərəfdən parlaq rənglər, qeyri-adi qatlama üsulları və geniş kəsimli şalvarlar kimi yeniliklər diqqət çəkir. Bununla yanaşı, davamlı dəb anlayışı da önəm kəsb edir: təbii parçaların istifadəsi, uzunömürlü geyimlərin seçimi və təkrar istifadəyə yararlı kombinlər insanların seçimlərinə təsir göstərir.

Beləliklə, payız modası təkcə geyim dəyişikliyi deyil, həm də mövsümün sosial, psixoloji və estetik tələblərinin əksidir. O, insanlara həm zövq, həm də rahatlıq bəxş edir və bu səbəbdən hər yeni mövsüm moda sahəsində xüsusi maraqla izlənilir.

## Əsas moda yönümləri və rəng palitrası

Parlaq və doymuş rənglər: Yaşılın canlı tonları, al qırmızı, dərin bənövşəyi bu mövsüm ön plandadır.

Seçilən rəng palitrası: Tünd bənövşəyi, təbii yaşıl, açıq mavi və neytral tonlar üstünlük təşkil edir.

## Uyğun rəng birləşmələri:

Şokolad rəngi + açıq yaşıl + tünd qəhvəyi

Narıncı + bej + açıq çəhrayı + tünd qəhvəyi

Gavalı qırmızısı + bənövşəyi

## Parça və material seçimləri

Dəri, süet və süni xəz - dəbdədir, geyimə həm zəngin, həm də isti görünüş verir.

Xüsusi işlənmiş parçalar - keçmiş üslubları xatırladan, amma yeni formada təqdim olunan materiallar diqqət çəkir.

## Geyim forması və üslublar

Geniş formalı cins şalvarlar - artıq dar cinslərin yerini geniş, rahat kəsimlər tutur. Qadın formalarını ön plana çıxaran geyimlər - beldən daralan gödəkçələr və kostyum üslubları çox istifadə olunur.

## Geyimlərin uyğunlaşdırılması

Paltar üzərinə cins şalvar - paltarın altına cins geyinmək bu payız yenidən dəbə qayıdır. Sadə və zamansız parçalar - ağ köynək, cins gödəkçə, yun köynəklər və əl çantaları yenə də aktualdır.

## Üslubun yönləri

Zərif gündəlik geyim - parlaq rəngli palto, xüsusi çanta və rahat ayaqqabı ilə gündəlik həyatda da şıq görünmək mümkündür.

Romantik üslub - dantelli, xəzli və incə parçalarla nostalji ab-hava yaradılır.

## Payız 2025 dəbinin əsas məqamları bunlardır:

Doymuş və zəngin rənglər.

Dəri, süet və süni xəz kimi toxumalı parçalar.

Geniş formalı şalvar və qadın formalarını vurğulayan geyimlər.

Sadə, lakin daim dəbdə olan geyimlər.

Qatlama üsulları ilə yaradıcı üslub.

***Ayşən Vəli***

# 3 sentyabr 1991-ci il: Xalqın taleyini dəyişdirən tarix

***Ümummilli Lider Heydər Əliyevin həyatı kitablara sığmayacaq qədər dərin və mənalıdır. Azərbaycan xalqının həyatında, müstəqilliyinə qovuşmasında, inkişaf və tərəqqisində, milli dəyərlərinin formalaşmasında, tarixinin, mədəniyyətinin qorunub yaşadılmasında və günlərlə saya biləcəyimiz digər məsələlərdə Ulu Öndərin rolu əvəzsizdir. Böyük şəxsiyyətin həyat və fəaliyyətinin Azərbaycan tarixinin ayrıca bir mərhələsini təşkil edən Naxçıvan dövrü isə daha diqqətçəkəndir. Çünki bu mərhələ ümumilikdə Azərbaycan xalqının taleyinin dəyişməsinə xidmət edən bir mərhələ olmuşdur.***



Görkəmli dövlət xadiminin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən fövqəladə sessiyada deputatların və iclas zalının qarşısına toplaşan minlərlə insanın təkidi ilə Ali Məclisin Sədri seçilməsi də Azərbaycanın müstəqillik yolunun əsasını qoymuşdur.

"Bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim Xalqın bu əhval-ruhiyyəsini, tələblərini nəzərə alaraq bütün məsələləri götür-qoy etdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm", - deyən dahi şəxsiyyət Naxçıvan Muxtar Respublikasını erməni təcavüzündən xilas edib, blokada şəraitində gələcək inkişafın böyük təməllərini atıb. Görkəmli dövlət xadiminin qədim diyardan Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə və Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilməsi böyük təcrübəyə malik olan qüdrətli siyasətçinin ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etməsinə meydan açdı. Ümummilli Lider Heydər Əliyevin xalq deputatı kimi fəaliyyəti, onun iradəsi ilə qəbul olunmuş qərarlar müstəqillik tariximizin ən parlaq səhifələrini təşkil edir.





## Müstəqilliyimizin əsas səbəbkarı

1990-cı ilin yanvar ayında Azərbaycanın ayrı-ayrı rayonlarının, eləcə də Naxçıvanın sərhədlərində ermənilər tərəfindən münaqişələr törədilirdi. Yanvar ayının 18-də keçmiş SSRİ-nin Daxili Qoşunlarının iştirakı ilə Naxçıvanın Kərki kəndi işğal olunmuşdu. Ermənilərin Sədərək istiqamətində mütəmadi hücumları başlamışdı və vəziyyət gündən-günə gərginləşirdi.

Yanvarın 20-də Bakıda törədilən faciə ilə Naxçıvanın sərhədlərində münaqişələrin başlanmasının üst-üstə düşməsi isə ermənilərin havadarlarının əvvəlcədən hazırladığı böyük plan üzrə cərəyan edirdi. Belə ki, burada məqsəd diqqətin Bakı hadisələrinə yönəlməsi fonunda Naxçıvan əhalisi arasında ümidsizlik yaradaraq bölgənin boşaldılması və erməni işğalı üçün şəraitin yaradılması idi. Digər tərəfdən isə Naxçıvanı ölkənin paytaxtı ilə birləşdirən yollarda da ermənilər tərəfindən münaqişə törədilir, Bakı-Naxçıvan qatarları dayandırılır, günlərlə işləmir, maşinistlərə qarşı vəhşiliklər edilirdi. Naxçıvan blokada vəziyyətinə salınırdı. Bütün bu əməllərin arxasında kimin olduğu, kimin planı və gücü ilə həyata keçirilməsi 20 Yanvar hadisələrindən sonra Naxçıvana qayıdan və burada yaşayan Ulu Öndərə gün kimi aydın idi. Elə buna görə də Ali Məclisin 14 dekabr 1990-cı il tarixdə keçirilən sessiyasında yeni ittifaq müqaviləsinə münasibət məsələsi müzakirə olunarkən məsələ ilə bağlı çıxış edən Ulu Öndər Heydər Əliyev deyirdi: "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır..."

1991-ci il sentyabrın 3-də Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilməsi heç də keçmiş Sovetlər İttifaqı rəhbərliyinin nüfuzlu simasının kiçik bir əyalətə rəhbər seçilməsi deyildi. Bu, Azərbaycanı çox yaxşı bələd olduğu ittifaqın caynağından qoparmaq üçün yolun başlanğıcı idi. Naxçıvanda yaşadığı halda, Azərbaycanı idarə etmək qabiliyyətinin, xalqın müstəqillik arzusunu reallaşdırmaq bacarığının, tarixi sənədlərin qəbulu və həyata keçirilməsi əzminin nümayişi idi. Bu seçim eyni zamanda Azərbaycanın qədim diyarı Naxçıvanın erməni təcavüzündən, onun düşmən əlinə keçmək təhlükəsindən xilası idi.

Təbii ki, bütün bu hadisələrin fonunda Ulu Öndərin yaşadığı, rəhbərlik etdiyi Naxçıvanda SSRİ-nin saxlanılmasına dair referendum keçirilə bilməzdi. Beləliklə də referendum Naxçıvanda boykot edildi. Bu barədə Azərbaycan Respublikası Ali Sovetinin 18 oktyabr 1991-ci il tarixli sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktına münasibətlə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 26 oktyabr 1991-ci il tarixli bəyanatında deyilir: "Naxçıvan Muxtar Respublikasının demokratik qüvvələri son üç ildə Azərbaycan Respublikasının milli azadlığı, müstəqilliyi uğrunda fəal mübarizə aparıb, bu yolda qurbanlar verib və 18 oktyabr 1991-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktını bütün Azərbaycan demokratik qüvvələrinin böyük qələbəsi kimi qiymətləndirir. 17 mart 1991-ci il tarixdə Sovet Sosialist Respublikaları İttifaqının saxlanılması haqqında referendumda Naxçıvan Muxtar Respublikası əhalisinin iştirak etməməsi məhz muxtar respublika demokratik qüvvələrinin Azərbaycanın milli azadlıq, istiqlaliyyəti uğrunda apardığı mübarizə ilə əlaqədardır.

Razılıq hissi ilə bildiririk ki, nəhayət, Azərbaycan Respublikası ali hakimiyyət orqanı tərəfindən milli azadlıq niyyətlərimizin həyata keçirilməsi üçün ilk addım atılıbdır...

Bundan sonra Azərbaycan Respublikasının Sovet İttifaqının hakimiyyət orqanlarında iştirak etməsi yolverilməzdir. Azərbaycanın dövlət müstəqilliyini tam reallığa çevirmək üçün ümumi xalq səsverməsinin keçirilməsi vacibdir və məqsədəmüvafiq olardı. Azərbaycan xalqı tam əmin ola bilər ki, naxçıvanlılar milli azadlıq uğrunda mübarizəni daha əzmlə davam etdirəcəklər".

Dövlətimizin başçısı bu məsələyə münasibət bildirərkən tarixi fakta əsaslanaraq demişdir: "... Heydər Əliyev qoymadı ki, Naxçıvanda bu referendum keçirilsin. İndi baxın, müstəqilliyə aparan addımlar hansılardır? Müstəqilliyə aparan yollar haradan keçib?.. Mən istərdim ki, hər kəs bu tarixi bilsin və müstəqilliyin əsas səbəbkarlarını tanısın. Bizim müstəqilliyimizə gedən yol məhz 17 noyabr 1990-cı ildən başlamışdır ki, indi dövlət bayrağımız olan üçrəngli bayraq dövlət bayrağı kimi təsis edildi".

## Gülünc qərarları ləğv edən tarixi qərarlar

70 illik əsarət zəncirinin tamamilə qırılıb dağılmaq üzrə olduğu, 15 müttəfiqin azadlıq mücadiləsi ilə mübarizə apardığı bir vaxtda, xüsusilə də 1990-cı ilin 19-20 yanvarında Bakının Azadlıq meydanında müstəqillik uğrunda yüzlərlə şəhidi olan ölkənin Ali Sovetinin 1991-ci il 16 yanvar tarixli qərarına günümüzün prizmasından baxdıqda həmin dövrdə bu xalqın taleyinin kimlərin əlində olması böyük təəssüf hissi doğurur. Adıçəkilən tarixdə Azərbaycan Respublikası Ali Soveti "Sovet Sosialist Respublikaları İttifaqının saxlanması məsələsi üzrə SSRİ referendumunun Azərbaycan Respublikasında keçirilməsinin təşkili haqqında" qərar qəbul etmişdi. Qərarda referendumun "Ümumxalq səsverməsi (SSRİ referendumu) haqqında" SSRİ Qanununun 17-ci və 18-ci maddələrinə uyğun olaraq Azərbaycan Respublikasında 1991-ci il martın 17-də keçirilməsi qeyd olunurdu.

Nə üçün qəbul edilmişdi bu gülünc qərar? Axı artıq vaxt yetişmişdi. Müstəqilliyimizin bir addımlığında bu qərarı qəbul etməyin təbii ki, başqa mənası yox idi. Burada onların məqsədi yalnız tutduqları vəzifəni qorumaqdan, xalqı əzməkdən, yüzillik müstəqillik arzularını məhv etməkdən ibarət idi. Sual olunur, ölkəsində 20 Yanvar hadisəsini yaşayan bir dövlət məmuru nə qədər qəddar ola bilərdi ki, bu hadisəni törədən qurumun yenidən hakimiyyətdə qalmasına, özününsə onun əsarətinə baş əyməsinə səs verə bilərdi. Qızışdırılıb meydana salınan ermənilərin sərhədlərimizdə törətdiyi əməllər, 1988-ci ildən başlayan Ermənistan-Azərbaycan münaqişələrinin hər gün kəskinləşməsi hələ də bu məmurları qəflət yuxusundan ayıra bilmirdi. Çünki onlar fərqli yaşayışı, öz vəzifə səlahiyyətlərini, masalarını bütöv bir xalqın mənafeyindən, taleyindən üstün tuturdular. Bütün bunlara görə də SSRİ-nin saxlanılması onlar üçün vacib məsələ idi.

Bu barədə dövlət başçısı cənab İlham Əliyev tarixi və dəyərli fikirlərini bildirərək qeyd edib ki, Sovet İttifaqı dağılırdı, Rusiya Federasiyası özü dövlət suverenliyi haqqında Konstitusiya Aktını bizdən qabaq qəbul etmişdi: "Rusiya çıxdı, Ukrayna çıxdı, bütün qalan respublikaları çıxdı. Azərbaycan rəhbərliyi nəyi gözləyirdi, kimi gözləyirdi? Bilirsiniz, ona görə, bu tarixi bilmədən düzgün təsəvvür formalaşdırmaq çətindir. Gələcəkdə düzgün addımların atılması üçün də bu vacibdir və gənc nəsil də bunu bilməlidir.

Tarixi həqiqət belədir. Amma, eyni zamanda, bizim o ildə digər tarixi həqiqət var - o da 17 noyabr tarixidir. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə o vaxt Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişdirildi, "Sovet Sosialist" sözləri o addan götürüldü, sadəcə, Naxçıvan Muxtar Respublikası adlandırıldı. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda rəsmi bayraq kimi qəbul edildi. Bu tarixi videolar var. Eyni zamanda, Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, oxşar addımı Azərbaycan Ali Soveti də etsin. Ancaq bunu etmədi. Əksinə, 1991-ci ilin yazında Sovet İttifaqı çərçivəsində keçirilmiş referendumda, Sovet İttifaqının saxlanmasına dair referendumda ovaxtki Azərbaycan rəhbərliyi xalqın iradəsinə zidd olaraq o referendumun nəticələrini saxtalaşdıraraq Sovet İttifaqının saxlanmasına səs verdi".



## Ölkədəki vəziyyət fonunda "91-lər"in mühüm missiyası

1990-cı illərin əvvəlində respublikada vəziyyət olduqca ağır idi-Azərbaycanda ictimai-siyasi proseslər idarəolunmaz forma alırdı. Hakimiyyətdə olanlar isə sanki xalqın maraqlarını unutmuşdu. Onların nəyə xidmət



etdiyini anlamaq mümkün deyildi. Xalqın müqəddəratı, istəyi, Vətənin təhlükəsizliyi onları maraqlandırmırdı. Həmin dövrdə xalq ağır vəziyyətə düşmüşdü və ən başlıcası mənəvi cəhətdən sarsılmışdı. Hakimiyyətə qarşı ümumxalq narazılığı yaranmışdı və insanlar mitinqlər, etiraz aksiyaları keçirməklə hakimiyyətə etirazlarını bildirirdilər. Ümumxalq narazılığı fonunda 1992-ci ildə respublikada hakimiyyətə gələn AXC-Müsavat cütlüyü dağıdıcı proseslərin qarşısını nəinki almadı, əksinə hərc-mərclik daha da artdı, Ermənistanın hərbi təcavüzü daha da sürətləndi. Çox qısa zamanda xalq AXC-Müsavat hakimiyyətinin idarəçiliyi bacarmadığının şahidi oldu. Bu hakimiyyətin faciəsi onda idi ki, bacarıqlı, peşəkar insanları da vəzifədən kənarlaşdırırdı. Beləliklə, o vaxtki hakimiyyətin yarıtmaz siyasəti nəticəsində ölkəmiz uçuruma doğru sürüklənirdi, Azərbaycan məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı.

Ölkədəki ümumi vəziyyətin nə qədər təhlükəli olduğunu cəmiyyətin sağlam qüvvələri, ziyalılar yaxşı dərk edirdilər. Bu insanlar anlayırdı ki, Azərbaycanı belə bir ağır vəziyyətdən xalqımızın ləyaqətli oğlu Heydər Əliyev kimi böyük dövlət xadimi, bütün dünyada tanınmış bir şəxsiyyət xilas edə bilər. Amma ozamankı hakimiyyət Ümummilli Lider Heydər Əliyevin təcrübəsindən nəinki bəhrələnmək istəmirdi, əksinə ona qarşı əsassız mübarizə aparırdı. Bütün bunlara rəğmən tanınmış ziyalılar Heydər Əliyevin hakimiyyətə qayıdışını olduqca zəruri hesab edirdilər. Respublikanın bütün əhalisi Ulu Öndərin hakimiyyətə gəlməsini istəyirdi. Amma hakimiyyət hər vəchlə buna mane olurdu. Yaş senzini ortaya atmışdı ki, Heydər Əliyev seçkilərdə iştirak edə bilməsin.

Belə olan təqdirdə, cəmiyyətin öndə gedən bir qrup ziyalısı 16 oktyabr 1992-ci ildə "Səs" qəzeti vasitəsilə Ulu Öndər Heydər Əliyevə müraciət etdi. "91-lər"-in fəaliyyəti kimi tariximizə düşən bu hadisə çox önəmlidir. Çünki ziyalılar görürdülər ki, ölkədə separatçılıq baş alıb gedir, qanunsuz silahlı dəstələr insanlar üçün böyük təhlükəyə çevrilir, əhalinin həyat səviyyəsi də sürətlə aşağı düşür. Yəni, sözün əsl mənasında Vətən əldən gedirdi. Belə bir şəraitdə 91 ziyalı Heydər Əliyevə yeni bir partiyanın yaradılması və həmin partiyaya rəhbərlik etməsi ilə bağlı müraciət etdi.

Partiyanın yaradılmasında məqsəd demokratik yolla hakimiyyətə gəlib Vətəni xilas etmək idi. Bütün Azərbaycan xalqı görürdü ki, Heydər Əliyev Naxçıvanı məhv olmaqdan xilas etdi. Blokada şəraitində olan bir bölgədə insanlarla Heydər Əliyevin birliyi bütün çətinliklərə sinə gərdi. Bütün xalq Heydər Əliyevi çox sevirdi. Ona inanır və böyük ümid bəsləyirdi. Onun birinci dəfə Azərbaycanda hakimiyyətdə olduğu dövrdə gördüyü işlər, dövlətimizin başçısının da vurğuladığı kimi, həmin dövrdə Qarabağda separatist qüvvələrin baş qaldıra bilməməsi bu inamı daha da möhkəmlətmişdi. Dövlət başçısının dediyi kimi: Heydər Əliyevə cəmiyyətdə inam çox yüksək səviyyədə idi. Bu inamın əsas səbəbləri o idi ki, Azərbaycanda işlədiyi dövrdə o həmişə xalqa xidmət edirdi, həmişə xalqın qayğıları ilə yaşayırdı, həmişə xalqla birlikdə idi, bir yerdə idi. Məhz onun rəhbərliyi altında Azərbaycan 1970-80-ci illərin əvvəllərində sovet məkanında ən geridə qalmış respublikadan ən qabaqcıl respublikaların birinə çevrilmişdir və bütün statistik göstəricilər bunu təsdiqləyir. Eyni zamanda, Azərbaycanda yaşayan vətəndaşların həyat səviyyəsi ildən-ilə yaxşılaşırdı, xüsusilə kənd təsərrüfatı ilə məşğul olan insanlar öz həyatını yenidən qura bilmişdilər.

Dövlətimizin başçısı ötən 30 ilin tarixini çox ətraflı, bütün hadisələri xronoloji ardıcıllıqla şərh etməklə böyük bir tarixdən söhbət açır, Ulu Öndərimizin qətiyyətini, iradə və bacarığını tarixi faktlarla göstərir: ...Heydər Əliyev bütün vəzifələrdən istefa verəndən iki həftə keçməmiş erməni separatçıları artıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşməsi ilə bağlı məsələ qaldırmışdılar. Yəni, bu amillər göstərir ki, Ulu Öndər pensiyada olanda da, xalqımız üçün ən faciəvi günlərdə də xalqla birlikdə idi. 20 Yanvar faciəsinin ertəsi günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək sovet hökumətini, Kommunist Partiyasını - uzun illər xidmət etdiyi partiyanı ittiham etmişdir, bu dəhşətli cinayəti qınamışdır. Bütün bunlar və eyni zamanda, Naxçıvanda çalışdığı dövrdə müstəqilliyə doğru atılan addımlar, o cümlədən Azərbaycan Demokratik Respublikasının Dövlət Bayrağının Naxçıvanda rəsmi bayraq kimi təsis edilməsi və digər addımlar, həmçinin Naxçıvanın erməni işğalından qorunması xalqın ona inamını daha da artırırdı və bütün bu amillər nəticədə xalqımızın müdrikliyinə əsaslanaraq gələcəkdə Azərbaycanı böyük bəlalardan qurtara bilmişdir.

## Azərbaycanın xilası-Yeni Azərbaycan Partiyası

Məşhur "91-lər" öz tarixi missiyasını şərəflə yerinə yetirdilər. Yeni bir partiyanın-Yeni Azərbaycan Partiyasının yaradılması da reallaşdı. Partiyanın təsis konfransı Naxçıvanda keçirildi. Təsis konfransında ölkəmizin bütün bölgələrindən 500-dən çox nümayəndə iştirak edirdi və onların tarixi qərarları tariximizin yeni səhifəsinin açılmasına gətirib çıxardı.




Yeni Azərbaycan Partiyasının Naxçıvanda keçirilmiş birinci təsis konfransını tarixi hadisə adlandıran dövlətimizin başçısı deyirdi: Ulu Öndərin sədrliyi ilə keçirilmiş bu konfransdan sonra ölkəmizdə yeni siyasi qüvvə yaranmışdır. Yeni Azərbaycan Partiyası yarananda müxalifət partiyası kimi yaranmışdır və dövlətin ağır problemlərinin, yükünün bir hissəsini öz üzərinə götürmək böyük məsuliyyət tələb edən addım idi. Çünki o vaxt, bir daha demək istəyirəm, ölkədə gedən proseslər çox narahatedici idi və Azərbaycanın görkəmli nümayəndələrinin məhz Heydər Əliyevə müraciət etməsi bu zərurətdən doğurdu. Çünki ölkə artıq idarəolunmaz vəziyyətə düşmüşdü, bir il ərzində dövlətçiliyin əsasları qoyulmamışdı, demokratik inkişaf ləng gedirdi, əslində, geriyə addımlar atılırdı. Biz təkcə senzuranın tətbiq edilməsini yada salsaq, demək kifayətdir ki, o vaxt demokratik mühitdən söhbət gedə bilməzdi. Yeni Azərbaycan Partiyasının təsis konfransının məhz Naxçıvanda keçirilməsi də buna bağlı idi. O vaxt Bakıda bu konfransın keçirilməsinə icazə verilməmişdi. Yəni, demokratik dəyərlər elan olunsa da, Azərbaycan xalqı faktiki olaraq həyatda bunun əksini görürdü. Media azadlığı yox idi, iqtisadiyyat çox ağır vəziyyətdə idi, insanların sosial vəziyyəti gündən-günə ağırlaşırdı, yoxsulluq təxminən 90 faizə çatmışdı, sənaye istehsalı iflic vəziyyətində idi. Bizim sənayemizin aparıcı sahəsi olan neft-qaz sənayesi də böyük tənəzzülə uğramışdı və faktiki olaraq ölkəmizdə elektrik enerjisi böhranı hökm sürürdü. Nizami ordu yaradılmamışdı, inflyasiya ikirəqəmlidən üçrəqəmliyə keçirdi. Yəni, budur 1992-ci ilin noyabr ayında ölkəmizdə yaranmış vəziyyət.

YAP-ın təsis konfransından yeddi ay keçəndən sonra Heydər Əliyevin xalqın tələbi ilə Bakıya dəvət edilməsi, parlamentin sədri seçilməsi, 11 ay keçəndən sonra - oktyabr ayında isə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə tariximizin o qara səhifəsi bağlanmışdır. Və biz bağlanan o qara səhifədən sonra başlanan tariximizin parlaq səhifələri ilə bu gün fəxr edir, qürur duyuruq.

## Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!

Bu dəyərli fikirlərin müəllifi olan Ulu Öndərin uzaqgörənliyi, əzmkarlığı, məsləhətkeşliyi, ideyaları ilə müstəqilliyimiz qorundu, yaşadı, əbədiləşdi. Bu gün müstəqil Azərbaycanımız etibarlı əllərdədir. 1990-cı illərdə səriştəsiz dövlət rəhbərləri tərəfindən ermənilərə satılan torpaqlarımız fəaliyyətində daim Heydər Əliyev siyasətinə, ideologiyasına əsaslanan dövlət başçımızın rəhbərliyi ilə şücaətli Milli Ordumuz tərəfindən işğaldan azad edildi. 2020-ci ildə 44 günlük müharibə ilə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması Ulu Öndərimizin ən böyük arzusunun reallaşması idi.

Bu barədə Prezident İlham Əliyevin dəyərli və yaddaqalan, bütün nəsillərə nümunə olan dəyərli fikirlərini dinləmək kifayətdir: Heydər Əliyev öz siyasi vəsiyyətində bir şey də demişdir. Artıq bunu dəfələrlə demişəm, Azərbaycan xalqı da bilir ki, başa çatdıra bilmədiyimiz işləri davamçılarımız başa çatdıracaq. Onların arasında yəqin ki, mən belə hesab edirəm, ilk növbədə, Qarabağ probleminin həllini nəzərdə tuturdu. Biz, onun davamçıları bu problemi bütün işlərimizin mərkəzinə qoyduq. Yəni, hər bir addım, hər bir təşəbbüs, hər bir sərmayə, hər bir beynəlxalq təmas bu məqsədi güdürdü ki, bu, bizi müqəddəs hədəfimizə yaxınlaşdırır, yoxsa uzaqlaşdırır?! Ona görə bütün işlərimizin mahiyyəti məhz bu idi - Qarabağı azad etmək, tarixi ədaləti bərpa etmək. Biz bu hədəfə doğru gedirdik. Bizim yolumuz çox çəkdi. Ancaq elə gedib, elə nöqtə vurmalı idik ki, bu, birdəfəlik olsun. Biz avantüraya heç vaxt gedə bilməzdik. Biz səhv addım, yaxud da ki, vaxtsız addım ata bilməzdik. Biz hər şeyi ölçüb-biçib öz gücümüzü, eyni zamanda, digər amilləri nəzərə alaraq ən düzgün vaxt seçməli idik, ən düzgün vaxt üçün ən yaxşı vəziyyətdə olmalı idik. Xalqımız Ordumuzla tam birləşdi. Ona görə biz hamımız deyirik ki, bu, ümumxalq Qələbəsidir. Çünki xalq-iqtidar bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində biz istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik, düşməni torpaqlarımızdan qovduq. 8 noyabr 2020-ci il hamımızın yaddaşında əbədi qalacaq, o cümlədən mənim. O vaxt Ulu Öndərin məzarını ziyarət etdim, ondan sonra şəhidlərin qəbrini ziyarət etdim. Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşa müjdəsini verdim. Ulu Öndərin məzarı önündə özümə dedim ki, bu vəsiyyət də, bu sonuncu vəsiyyət də yerinə yetirildi. Bəli, Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!

***Mətanət Məmmədova***

# Fransada dərin böhran

## *Bayrou hökuməti parlamentə yalvarır*

***Fransanın baş naziri Fransua Bayru hökumətinin taleyi ilə bağlı parlament partiyaları ilə danışıqlara başlayıb. Bundan əvvəl o, sentyabrın 8-də parlamentin onun kabinetinə etimad səsverməsi keçirəcəyini açıqlamışdı. Bütün solçu partiyalar, eləcə də ifrat sağçı Milli Ralli (MN) hökumətin istefasına səs verəcəklərini bildiriblər. Çətin ki, Bayrou bütün həftə davam edəcək danışıqlarda rəqiblərini razı sala bilsin. Amma onları inandıra bilməsə, hökumət istefaya gedəcək, siyasi böhran daha da ağırlaşacaq, mühüm məsələlərin, o cümlədən büdcə məsələlərinin həlli təxirə salınacaq.***



Mətbuat konfransında danışan Bayrou bildirib ki, bir həftədən sonra parlament onun baş nazir kimi taleyini deyil, bütün Fransanın taleyini həll edəcək. Deputatlar hazırkı hökumətin əleyhinə səs verərsə, o, buraxılacaq. Amma Nazirlər Kabinetinin fəaliyyətini təsdiqləmək o demək olacaq ki, deputatlar dövlət xərclərinin azaldılması zərurəti ilə razılaşırlar, yəni iqtisadiyyat üçün zəruri olsa da, son dərəcə populyar olmayan, qərarın məsuliyyətini öz üzərlərinə götürürlər və bununla bəzi güzəştlər elan edib, lakin onlar əhəmiyyətsizdir və çox dəyişmir. Bayru Sosialist Partiyasını razı sala biləcəyinə ümid edirdi. Əgər onun deputatları hökumətin əleyhinə səs verməsələr, o, istefaya getməyəcək: qalanların bunun üçün kifayət qədər səsi olmayacaq. Bunun üçün baş nazir iki dövlət bayramını (Qələbə Günü və Pasxa Bazar ertəsi) ləğv etmək planlarından imtina etməyə hazır idi. Sosialistlər özləri büdcəni 44 milyard avro yox, təxminən 20 milyard avro ixtisar etməyi təklif edirlər. "Lakin partiyanın bunu dəqiq necə həyata keçirməyi planlaşdırdığı hələ də bəlli deyil. Onlar konkret təkliflər və arqumentlər formalaşdırmayıblar, bu o deməkdir ki, Bayrunun razılaşacağı və ya razılaşmadığı heç nə yoxdur. İfrat sağçılar, öz növbəsində, məsləhətləşmələrə razı olsalar,





da öz siyasi gələcəklərini riskə atırlar.

Bayrou risk edir. Adətən baş nazir etimad səsverməsinə hökumətin öz qələbəsinə əmin olduğu və hakim partiyanın əksər mandatlara sahib olduğu halda səs verməyi təklif edir. İndi prezident Emmanuel Makron və baş nazirin tərəfdarları mandatların daha kiçik bir hissəsinə nəzarət edirlər. Bununla belə, Fransanın siyasi gündəmində büdrəmə olan qeyri-populyar büdcə layihəsi Bayrou üçün baş nazir qalmaq şansı qoymur. Parlament partiyaları yeni büdcə planının qəbulu zamanı istənilən halda ona etimadsızlıq votumu təqdim edəcəkdilər. Ən azı, əvvəllər bununla hədələmişdilər.





Hökumət başçısı uzun müddətdir ki, dövlət xərclərinin azaldılmasını və bununla da büdcədəki boşluğun bağlanmasını təklif edir. Bayrou təxminən 44 milyard avroya qənaət etmək istəyir. Bu məqsədlə artıq pensiya islahatı qəbul edilib, pensiya yaşı 62-dən 64-ə qaldırılıb. Baş nazir bəzi bayram günlərini ləğv etməyi, həmçinin sosial müavinətlərin məbləğini 2025-ci il səviyyəsində dondurmağı planlaşdırır: pensiya və müavinətlər indeksləşdirilməyəcək. "dondurulma"nın digər dövlət xərclərinə də təsir edəcəyi gözlənilir.

Bayrou planı qeyri-populyar ola bilər, lakin bu, Fransa üçün son dərəcə zəruridir. Audit İdarəsinin rəhbəri Pierre Moscovici ölkədəki maliyyə vəziyyətinin "kritik deyil, lakin şübhəsiz ki, həyəcanverici" olduğu barədə xəbərdarlıq edib. Ədliyyə naziri Gerald Darmanin və Xarici İşlər Naziri Manuel Vals partiya liderlərini güzəştə getməyə və məsuliyyəti öz üzərinə götürməyə çağırıb. Onlar kabinetin buraxılmasının ölkəyə xeyir verməyəcəyinə eyham vurublar. Amma boş yerə. Əvvəlki hökumət də xərcləri azaltmağa çalışdı və bu, onun istefası ilə nəticələndi. Mişel Barnierin kabineti cəmi üç ay - 2024-cü il sentyabrın 5-dən dekabrın 5-dək fəaliyyət göstərib. Hökumətin bir ildən az müddətdə ikinci istefası hazırkı icra hakimiyyətinin qarşısında duran problemlərin sayını artıracaq. Hazırkı baş nazir artıq Makronun hakimiyyəti dövründə altıncıdır. Bayru istefa verərsə, prezident ya yenisini təyin etməli, ya da parlamenti buraxmalı olacaq. Stabil hökumət yarada bilməməsi Makronun onsuz da düşən reytinqini aşağı salacaq, lakin hələlik onun özü təhlükədə deyil. Dövlət başçısı dəfələrlə bəyan edib ki, vaxtından əvvəl istefa verməyi planlaşdırmır. Və impiçment üçün heç bir əsas yoxdur. Buna baxmayaraq, onun düşünülmüş qərarlar qəbul edilməsi xahişi ilə müxalifətə müraciətləri haqlıdır. Problem ondadır ki, görünür, indiki hakimiyyətin əleyhdarları geri çəkilmək fikrində deyillər.

Sosialist Partiyasının lideri Olivye For bildirib ki, Bayru hakimiyyətdən uzaqlaşdırılmalıdır. O, hökumətin əleyhinə səs vermək niyyətinə toxunaraq, "Qəbul etdiyimiz qərar geri götürülməyəcək" deyib. Sosialistlərin büdcə təklifləri daha əvvəl baş nazir tərəfindən rədd edilmişdi. Bayrou izah edib ki, sollar dövlət xərclərini məhdudlaşdırmaq istəmir, hətta onu artırmaq da qəbuledilməzdir.

İfrat sağçılar da hökumət başçısı ilə yarı yolda görüşməyi planlaşdırmırlar. Onlar Bayrou ilə məsləhətləşmələrdə iştirak etmək niyyətində deyillər. "Artıq gecdir. Cənab Baş nazir, siz fransız xalqının xeyrinə olacaq büdcə yaratmaq üçün bir çox imkanları əldən vermisiniz" deyə partiyanın mövqeyin vitse-prezidenti Sebastien Çenu izah edib. Sosialistlər və ifrat sağçılarla yanaşı, Bayrunun büdcə xərclərini azaltmaq planlarına Kommunist Partiyası, Yaşıllar, Əzilməmiş Fransa və Respublika Uğrunda Sağlar İttifaqı da qarşı çıxır. Onlar birlikdə 330 yer tutur. Hökumətyönlü koalisiyanın isə cəmi 212 mandatı var.

Bayrunun hansısa fraksiya ilə razılığa gələ biləcəyi inandırıcı görünmür. Baş nazir enerji və miqrasiya məsələsini gündəmə gətirə bilərlər. Ən azı, onlar əvvəllər bu məsələlərin yenidən nəzərdən keçirilməsinə ümid edirdilər.

Bu arada, Bayrou üçün miqrasiya siyasətini ifrat sağçıların xoşuna gələcək səviyyəyə çatdırmaq çox çətin, hətta mümkünsüz olacaq. O, Aİ-dən çıxmağa təşəbbüs göstərməli olacaq ki, bu da real deyil. İndi mötədil hökumət rəsmiləri kabinetin buraxılmasına qarşı çıxacaqlar. Lakin Bayrunun postunu saxlamaq perspektivləri hazırda kifayət qədər illüziyadır. Bütün sol və sağ partiyalar hökumətin əleyhinə səs verməyə hazırdır. Baş nazir onlarla kompromis əldə edə bilməsə, Fransa üçün bir çox aktual məsələlər yenidən qeyri-müəyyən müddətə təxirə salınacaq.

***V.VƏLİYEV***

RAKURS

# Təbii resurslara necə qənaət etməli?

## Dünya alternativ enerji imkanlarından istifadə etməsə, təbii ehtiyatların tükənmə təhlükəsi var

*Dünya əhalisinin sürətlə artması və dünya sərvətlərindən istifadə neft və qaz ehtiyatlarının, həmçinin içməli su ehtiyatlarının sürətlə tükənməsinin əsas səbəblərindəndir. Təbii ehtiyatların getdikcə azalması yeni enerji mənbələrinə ehtiyacın yaranmasına səbəb olur. Ona görə də təbii enerji mənbələri, içməli su ehtiyatları tamamilə tükənməzdən əvvəl mövcud ehtiyacları ödəmək üçün yeni enerji mənbələrinin tapılması və bu ehtiyatların davamlı olmasını təmin etmək çox vacibdir. Alternativ enerji mənbələri təbii ehtiyatlara qənaət edə biləcək yeni enerji növləridir.*



### Tükənən və tükənməyən enerji nədir?

Əslində, enerjinin nə olduğu haqqında çox geniş və əhatəli danışa bilərik. Fizikada enerji qısaca "sistemin iş görmək qabiliyyəti" kimi ifadə edilir. Enerjinin bir çox növləri var, məsələn, potensial enerji, kinetik enerji, istilik enerjisi, maqnit enerjisi və s. Kainatımızdakı resurslara nəzər saldıqda, enerji resurslarını tükənən və tükənməz resurslara ayıra bilərik. Tükənməyən ehtiyatlar tükənən ehtiyatlara alternativ olaraq yarandığından onlara alternativ enerji resursları deyilir. Tükənən ehtiyatlar istifadə olunduqca özünü yeniləyə bilməyən resurslardır.

Bu gün dünyamızda istifadə etdiyimiz bütün təbii enerji resursları tükənməkdə olan ehtiyatlardır. Bunları neft, kömür, təbii qaz və bir çox fərqli təbii ehtiyatlar kimi sadalaya bilərik. Bunun xaricində parçalanma yolu ilə enerji istehsalında istifadə etdiyimiz uran və torium kimi elementlər də tükənən ehtiyatlardır. İqtisadi hesablamalara görə, 20-ci əsrdə istifadə etdiyimiz enerjinin ən azı 15 qatı 21-ci əsrdə istifadə olunacaq. Bu, hazırda aşkar edilmiş qalıq ehtiyatlarımızın ən azı 80%-dən istifadə etmək deməkdir. Tükənməz və ya alternativ enerjinin əhəmiyyəti bu nöqtədə ortaya çıxır.





Alternativ enerjiləri ekoloji cəhətdən təmiz adlandırsaq da, belə elektrik stansiyalarının tikintisinə diqqət yetirilməzsə, ətraf mühitə ciddi ziyan vura bilər. Ətraf mühitə vurduğu ziyan baxımından qiymətləndirdiyimiz zaman ən təmiz enerjinin günəş və külək enerjisi olduğunu görürük. Artıq alternativ enerji istehsalına sərmayə qoyan ölkələrdə ən çox sərmayənin bu 2 enerji mənbəyinə yatırıldığını görə bilərik. Bu qaçılmaz bir həqiqətdir ki, ən azı indiyə qədər dünyamızın yaşana bilən planet olmasının qarşısını almaq və enerji etibarlılığımızı qorumaq baxımından yeganə həll yolu alternativ enerjiyə müraciət etməkdir.

### Alternativ enerji mənbələrinin əhəmiyyəti

Alternativ enerji mənbələri təbii ehtiyatlardan istifadə edilmədən istehsal olunan enerji mənbələridir. Bu xüsusiyyət alternativ enerji mənbələrini daha davamlı edir. Bu cür enerji təminatı olarsa təbii qaz, kömür və neft kimi enerji resursları tükənməyəcək. Alternativ enerji mənbələri bərpa olunandır və ətraf mühitə daha az zərər verir. Bərpa olunan enerji günəş, külək kimi sonsuz enerji mənbələrindən istifadə edilərək əldə edilir.

Dünya ölkələri bəyan edirlər ki, enerji təchizatında bərpa olunan enerjinin payı, xüsusilə iqlim dəyişikliyi ilə mübarizədə qalib gəlmək üçün yaxın illərdə kəskin şəkildə artmalıdır. Bu səbəbdən enerjinin əldə edildiyi yeraltı sərvətlər tükənməsə belə, daha dayanıqlı enerjilərə keçidin sürətləndirilməsi ətraf mühit və gələcək üçün çox vacibdir.

### Alternativ enerji növləri

Alternativ enerji davamlı enerji kimi də tanınır. Bu enerji təbii resurslara alternativdir. Təbii ehtiyatlar gələcəkdə tükənəcəyi üçün dayanıqlı enerjilərin müəyyən dövrü olmalıdır və tükənməməlidir. Günəş və ya külək enerjisi alternativ enerji mənbələridir. Davamlı enerji tükənməzdir və dünya əhalisini daha uzun müddət enerji ilə təmin edə bilən mənbələrdən əldə edilir. Alternativ enerjiyə gəlincə, onun müxtəlif növləri var. Alternativ enerjinin ən çox istifadə edilən formaları günəş və küləkdir. Bundan başqa, hidroelektrik, biokütlə və nüvə enerjisi də var.

Günəş enerjisi, qeyd etdiyimiz kimi, ən çox istifadə edilən alternativ enerji növüdür. Ən bəsit forması, günəş panellərinin günəş işığını enerjiyə çevirməsi və onu özündə saxlamasıdır, həmçinin özündə topladığı enerjini elektrik şəbəkəsinə ötürür.

Alternativ enerjinin ikinci növü külək enerjisidir. Bu prosesdə kinetik enerji, külək turbinlərindən istifadə edərək elektrik enerjisi kimi istifadə edilə bilən enerjiyə çevrilir. Külək enerjisinin $CO_2$ emissiyaları da "boz" elektrik enerjisindən 50 dəfə azdır və buna görə də daha davamlıdır.

Alternativ enerji olaraq, hazırda dünyada hidroenergetika enerji ehtiyacımızın kiçik bir hissəsini ödəyir. Bənddən axan su şırnağının altında quraşdırılmış qurğu vasitəsi ilə sudan enerji almağın üstünlüyü ondan ibarətdir ki, bu enerjinin əldə edilməsi zamanı təbiətə heç bir zərərli maddələr buraxılmır.

Biokütlə hər kəs tərəfindən alternativ enerji forması kimi qəbul edilmir. Bu metodun davamlılığı bəzən şübhə doğurur, çünki biokütlədən enerji əldə edilərkən müxtəlif materiallar yandırılır, mayalanır və qaza çevrilir. Məsələn, heyvanların peyinindən biokütlə kimi istifadə edib yanacaq əldə edilir, lakin istehsal prosesində təbiətə buraxılan qazın zərərli olma ehtimalları da düşünülür. Bununla belə, Hollandiya kimi bəzi ölkələrdə davamlı enerji istehsalının böyük hissəsi biokütlədən əldə edilir.

Ən çox müzakirə edilən alternativ enerji növlərindən biri də nüvə enerjisidir. Bu, getdikcə daha səmərəli hala gələn ucuz bir enerji növüdür. Bu, nüvə enerjisinin yaradılması prosesində yaranan nüvə tullantılarının emalı üçün də vacibdir. Dolayısı ilə təbiətə atılaraq ətrafın ekoloji çirklənməyə məruz qalmaması yerinə o tullantılardan səmərəli istifadə deməkdir.

Alternativ enerji növlərindən biri də geotermal enerjidir. Geotermal enerji yerin dərinliklərində tapılan istilikdir. O, yerin nüvəsinin istiliyindən əmələ gəldiyi üçün, dərinlik artdıqca temperatur da artır. Geotermal istilik çox etibarlı alternativ enerji mənbəyidir, çünki istilik hava şəraitindən asılı deyil. Geniş miqyasda hasil etmək asandır və karbon emissiyaları olmadığı üçün davamlıdır. Bu xüsusiyyətlər geotermal enerjini təbii qaza nisbətən daha dayanıqlı alternativ edir.

### Alternativ enerji mənbəsindən istifadə nümunələri

Alternativ enerji təbii qaz, kömür və neftdən əldə edilən ənənəvi enerjidən fərqli olaraq, mədən yanacaqlarından istifadə edilmədən istehsal olunan enerji olduğundan, ətraf mühitə daha az zərər verir. Buna görə də alternativ enerji həm də yaşıl enerji və ya davamlı enerji adlanır. Xüsusilə, qlobal istiləşmə və biomüxtəlifliyin azalması kimi risklərin artması səbəbindən alternativ enerji mənbələri günü-gündən daha çox əhəmiyyət kəsb edir. Bu səbəbdən dünyada alternativ enerji mənbələrindən istifadənin genişləndirilməsi istiqamətində müxtəlif təşəbbüslər var.

Məsələn, elektriklə işləyən avtomobillərin istehsalının artırılması və geniş tətbiqi neftdən asılılığın qarşısını almaq və karbon emissiyasını azaltmaq üçün çox faydalıdır. Bu gün karbon emissiyası alimlərin həll etməyə çalışdığı vacib bir problemdir. Karbon emissiyası atmosferə atılan karbon dioksid ($CO_2$) qazıdır. Təbii olaraq tonlarla karbon dioksid atmosferə atılır. Təbii karbon emissiyalarının ən böyük mənbəyi okeanlar və atmosfer arasındakı karbon dioksid mübadiləsidir. İnsanlar, heyvanlar və bitkilər tənəffüs prosesi zamanı karbon dioksid yayırlar. Bunlarla yanaşı, təbiətdə ölən heyvanlar və bitkilər torpaqla qarışarkən, yenidən karbon qazı atmosferə qarışır.

Günəş enerjisi ilə işləyən dam panelləri də alternativ enerji mənbələrindən istifadənin yaxşı nümunəsidir. Bu panellər sayəsində həm fabrik-zavod kimi istehsal müəssisələri, həm də ev təsərrüfatları istilik və elektrik kimi əsas ehtiyaclarını rahatlıqla qarşılaya bilir. Yerləşdiyi yer sayəsində ölkəmiz günəş və külək enerjisindən istifadə üçün çox əlverişlidir. "Küləklər şəhəri" deyə xarakterizə edilən Bakıda küləkdən əldə edilən enerji olduqca böyük paya sahib ola bilər. Ölkəmizin artan əhalisi ilə birlikdə istehlakı artan enerji tələbatının təbiətə zərər vermədən daha qənaətli şəkildə əldə edilməsi daha məqsədəuyğun olardı.

**Lalə Mehralı**

# "Çin Azərbaycanın ərazi bütövlüyünə hər zaman hörmətlə yanaşıb"



**"Cənab Prezident İlham Əliyevin Vətən müharibəsindən sonra həyata keçirdiyi xarici siyasət kursu, Azərbaycanın yeni geosiyasi reallıqlarda rolunu və mövqeyini daha da möhkəmləndirməklə yanaşı, həm də regionda və dünyada davamlı sülhə, təhlükəsizliyə və əməkdaşlığa yönəlmiş strateji yanaşmanı əks etdirir". Bu sözləri SİA-ya açıqlamasında deputat Zahid Oruc deyib.**





Onun sözlərinə görə, bu kurs ilk növbədə qlobal güclərin maraqları arasında balans yaratmaq, onların toqquşma nöqtələrini uzlaşdırmaq və Azərbaycanın milli maraqlarını beynəlxalq müstəvidə maksimum dərəcədə təmin etmək məqsədi daşıyır: "Postmüharibə dövründə Azərbaycanın xarici siyasəti təkcə regional deyil, qlobal əhəmiyyət daşıyan yeni bir mərhələyə qədəm qoyub. Bu mərhələ Azərbaycanın yalnız regionda deyil, həm də Avrasiya məkanında mühüm tranzit və enerji qovşağına çevrilməsi ilə xarakterizə olunur. Məhz bu baxımdan, Prezident İlham Əliyevin Çinlə münasibətlərin inkişaf etdirilməsinə verdiyi önəm, Azərbaycanın çoxvektorlu siyasətinin məntiqi davamı kimi çıxış edir. 8 avqustda Azərbaycan ilə Çin arasında imzalanmış sənədlər, iki ölkə arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə keçdiyini nümayiş etdirdi. Bu sənədlər sadəcə diplomatik və iqtisadi əməkdaşlığı deyil, strateji tərəfdaşlıq səviyyəsində qarşılıqlı etimad və siyasi dialoqun daha da dərinləşməsini ehtiva edir. Prezident İlham Əliyevin bu münasibətlə verdiyi bəyanat da onu göstərdi ki, artıq Çinlə əlaqələr təkcə ikitərəfli əməkdaşlıqla məhdudlaşmır, həm də regionda və daha geniş coğrafiyada strateji planların tərkib hissəsinə çevrilib".

Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, Çin Xalq Respublikası Azərbaycanın ərazi bütövlüyünə hər zaman hörmətlə yanaşıb və bu mövqeyini bütün beynəlxalq platformalarda açıq şəkildə ifadə edir: "Azərbaycan da öz növbəsində "vahid Çin" siyasətini dəstəkləyir və bu dəstəyi ən yüksək tribunalarda nümayiş etdirir. Bu qarşılıqlı anlayış və etimad, iki ölkənin münasibətlərində dərin tarixi, mədəni və iqtisadi əməkdaşlıq üçün möhkəm zəmin yaradır. Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sammitindəki çıxışı da Azərbaycanın bu yeni xarici siyasət kursunun parlaq nümunəsi kimi qiymətləndirilə bilər. Cənab Prezidentin sammitdə səsləndirdiyi fikirlər, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan siyasətinə, regional sabitlik və əməkdaşlıq təşəbbüslərinə verdiyi əhəmiyyətə, eləcə də ŞƏT kimi nüfuzlu bir təşkilatla daha geniş inteqrasiyada maraqlı olduğuna dair aydın mesajlar verdi. Azərbaycanın Çin və ŞƏT məkanındakı ölkələrlə əlaqələrinin dərinləşməsi, Prezident İlham Əliyevin uzaqgörən və çevik xarici siyasətinin uğurlu təzahürüdür. Bu siyasət, Azərbaycanın beynəlxalq nüfuzunu artırmaqla yanaşı, ölkəmizin qlobal qərarvermə proseslərində iştirakını da gücləndirir. İndiki mərhələdə isə əsas məqsəd bu siyasətin davamlılığını təmin etmək, müxtəlif güc mərkəzləri arasında balansı qoruyaraq Azərbaycanın milli maraqlarını maksimum dərəcədə təmin etməkdir".

***Arzu Qurbanlı***



# Göydələnlər, göydələnlər...

**MƏTANƏT**

***İndi bütün böyük şəhərlərdə göydələnlər ucalır. Göz uzandıqca ucalan, şəhərləri bəzəyən, müasir görkəminə bir qədər də gözəllik qatan göydələnlər. Bu binalar həm yaşayış, həm də ofis binalarıdır. İnsanın ayağını yarandığı torpaqdan üzüb onun göylərə doğru çoxmərtəbəli mənzillərdə yaşamasına, ofislərin nə bilim, neçənci mərtəbəsində çalışmasına səbəb olan göydələnlər...***

Onlar həqiqətən də gözəl görünüşə malikdir. Hər bir şəhərin müasir memarlıq üslubuna yeni bir çalar qatır. İnsanlar bu hündürmərtəbəli evlərdə yaşamaqla, ofislərdə çalışmaqla özlərini xoşbəxt hiss edirlər. Çünki bu bunların pəncərələrindən gözəl panoram açılır. Dəniz, yaşıllıqlar, şəhərin ümumu mənzərəsi və sair bu binalardan başqa cür görünür.

Yəqin bütün bu gözəlliklər nəzərə alınıb ki, hər il sentyabr ayının 3-ü Ümumdünya Göydələnlər Günü kimi qeyd olunur, bu xüsusi gün insanları hündür binaların memarlıq nailiyyətlərini və şəhərin siluetinə verdiyi təsirini, göydələnlərin əzəmətli quruluşunu qiymətləndirməyə və onların şəhərlərin inkişafındakı əhəmiyyətini anlamağa təşviq edir.

Bu gün həm də dünyanın müxtəlif yerlərindəki göydələnləri araşdırmaq, onlar haqqında öyrənmək və ya göydələnlərin fotoşəkillərini çəkmək kimi fəaliyyətlərlə dolu bir gün kimi qeyd olunur. Göydələnlərin müasir şəhər həyatına qatdığı dinamizmi və ilhamverici gözəlliyi vurğulayan bu xüsusi gün müasir memarlıq və şəhər haqqında məlumatlılığı artırmaq məqsədi daşıyır.

Lakin göydələnlər hər hansı şəhərin rahatlığını, yaşıllığını əlindən almamalıdır. Onlar bütün bunlara xələl gətirməyəndə gözəl və heyrətamiz olurlar. Elə götürək Bakımızı. Çox az yaşıllığı olan Bakımızı. Betonlaşdırıblar bu şəhəri sahibkarlar, arxitektorlar, inşaatçılar, mühəndislər, xüsusilə də şirkət sahibləri. Fikirləri qalıb hündür mərtəbəli binaların təcili tikilməsində ki, satışını həyata keçirələr, mənfəətlənələr. Bu şəhərin qoynuna gündən-günə hündürmərtəbəli binalarla "beton naxışlar" vururlar. O qədər "naxış" ki, yan-yana, nəfəs-nəfəsə binalar sanki bir-birinin üstünə yıxılacaq...

Günəşə doğru yol alır bu binalar. Günəşin də gücü çatmır dan yerindən boylanıb bu şəhəri işığına, istisinə bürüməyə. Qoymur göydələnlər, çoxmərtəbələr, arxasında, qarşısında gizlədir Günəşi. Nəfəs-nəfəsə binalar pəncərəmizdən əlimizi uzatsaq qonşunun pəncərəsinə çatacaq dərəcədədir. Kəsiblər insanların pəncərəsinin qarşısını bu binaları inşa edənlər. Təmiz havadan, gün işığından məhrum ediblər onları. Pəncərələrindən yalnız betonlara baxmağı nəsib ediblər bu şəhərin sakinlərinə...

Nə bitir bu betonlaşma, nə də tükənir. Yağışdan sonrakı göbələklər kimi artır hər gün, hər saat. Betonlaşır bu şəhər, rəngli-rəngli betonlardan ibarət olur. Sağımız beton, solumuz beton, yolumuz beton, qarşıda beton, döngədə beton, nə qədər beton axı...

Bu şirkətlər tikintini planlaşdıranda-ağacları kütləvi şəkildə qırıb, yerində bina ucaltmağa başlayanda o layihələrə baxanlar olubsa, hər birində abadlıq, yaşıllaşdırma ilə bağlı hissəni də görüblər. Lakin beton mərtəbələr səmaya yüksəldikcə, yaşıllıqlar o mərtəbələrdən çox-çox aşağılarda unudulmuş rəngə, yada düşməyən işə çevrilir. Bir təhər, alayarımçıq istifadəyə verilən binalarda şirkət sahiblərini tapa bilmirsən ki, sözünü deyəsən. Yoxa çıxırlar, gözə görünmürlər. Axı haqsızdırlar, işləri yarımçıqdır. Əksər çoxmərtəbəli binaların layihəsi yarımçıqdır, sakinlər narazıdır. Həyətlərdə nə oturmağa bir oturacaq qoyulub, nə uşaqların əylənməsi üçün qurğu. Nə də bir yaşıllıq salınıb.

Son illərdə Memarlıq və Arxitektura Komitəsi tərəfindən qaydaların hazırlanmasına və ümumi tikintinin 25 faizindən az olmayaraq yaşıllıqların olması tələbinə baxmayaraq sahibkarlar 1 santimetrə də qənaət edərək ondan gəlir qazanmaq uğrunda mübarizə aparırlar. Onlar yeni binalar inşa etməklə yeni mənfəətlər ardınca gedirlər. Arxada qalan yarımçıq işləri isə sakinlər özləri tamamlamalıdır yəqin.

Bax göydələnlər gözəldir, füsunkardır. Lakin yaşıllığı əlimizden almayanda, pəncərəmizin qarşısına dikilməyəndə... Elə Göydələnlər günündə bu məsələləri bir də yada salaq. Salaq ki, anlayaq, hündürmərtəbəli binalar bizim yaşıl rəngimizi əlimizdən almamalıdır, pəncərəmizin qarşısına dikilib günəşi evlərimizdən, oksigeni ciyərlərimizdən qovmamalıdır. Bəlkə düşünəsiniz bu barədə, göydələnləri ucaldanlar...

# "Azərbaycan - Aİ münasibətləri regionda sabitlik və inkişafa töhfə verir"

**"Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin yaxşılaşması region üçün çoxşaxəli əhəmiyyət daşıyır. İlk növbədə qeyd etməliyəm ki, Avropa İttifaqı dünya siyasətində və iqtisadiyyatında mühüm güc mərkəzlərindən biridir". Bu sözləri SİA-ya açıqlamasında beynəlxalq ekspert Anar Əliyev deyib.**



Onun sözlərinə görə, Azərbaycan isə həm enerji resursları, həm də coğrafi mövqeyi baxımından strateji əhəmiyyət kəsb edir. Bu iki tərəfin münasibətlərinin inkişafı regiondakı siyasi sabitlik və iqtisadi inteqrasiya baxımından yeni imkanlar yaradır: "Birinci növbədə, enerji əməkdaşlığı məsələsi ön plana çıxır. Azərbaycan artıq Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya təbii qaz ixrac edir. Münasibətlərin yaxşılaşması ilə bu əməkdaşlıq daha da genişlənə, yeni enerji layihələri gündəmə gələ bilər. Bu, bir tərəfdən Avropa ölkələrinin enerji təhlükəsizliyini gücləndirəcək, digər tərəfdən isə Azərbaycanın ixrac potensialını artıracaq və ölkəyə əlavə maliyyə gəlirləri gətirəcəkdir.

Siyasi müstəvidə münasibətlərin yaxınlaşması Azərbaycanın beynəlxalq mövqeyini daha da möhkəmləndirir. Avropa İttifaqı ilə konstruktiv əməkdaşlıq Azərbaycanın sülh təşəbbüslərinə dəstək verə, Cənubi Qafqazda sabitliyin təmin olunmasına müsbət təsir göstərə bilər. Xüsusilə, Ermənistanla münasibətlərin normallaşdırılması prosesində Aİ-nin neytral və konstruktiv rolu Azərbaycanın maraqlarına xidmət edə bilər. Digər mühüm istiqamət isə iqtisadi inteqrasiyadır. Avropa İttifaqı Azərbaycan üçün böyük ticarət tərəfdaşıdır. Münasibətlərin yaxşılaşması ticarət dövriyyəsinin genişlənməsinə, yerli sahibkarların Avropa bazarına çıxış imkanlarının artmasına və yeni investisiyaların cəlb edilməsinə səbəb ola bilər. Bu həm də qeyri-neft sektorunun inkişafına güclü stimul verəcəkdir. Bundan əlavə, Avropa İttifaqı ilə yaxınlaşma təhsil, texnologiya və sosial sahələrdə əməkdaşlığı da əhatə edə bilər. Avropa təcrübəsinin Azərbaycana transferi idarəetmənin təkmilləşdirilməsi, rəqəmsal texnologiyaların tətbiqi və insan kapitalının inkişafı üçün mühüm rol oynayacaqdır.

Nəhayət, münasibətlərin yaxşılaşması regional əməkdaşlıq platformalarının möhkəmlənməsinə də təsir göstərə bilər. Azərbaycan, Avropa İttifaqı və qonşu ölkələr arasında həyata keçiriləcək ortaq layihələr regionun həm siyasi sabitliyinə, həm də iqtisadi rifahına xidmət edəcəkdir. Ümumilikdə, Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin yaxşılaşması ölkəmizin beynəlxalq siyasətdə balanslaşdırılmış kursuna uyğun olaraq həm iqtisadi inkişafı, həm də siyasi nüfuzunu gücləndirən mühüm amil kimi qiymətləndirilə bilər".

***Ziya Hikmətoğlu***

---

*EKSPERT RƏYLƏRİ*

# Yeni tədris ili yaxınlaşır: Məktəblərdə hazırlıqlar hansı mərhələdədir?

Yeni tədris ilinin başlanmasına az vaxt qalması valideynlər, müəllimlər və şagirdlər üçün həm həyəcan, həm də məsuliyyət dövrüdür. Məktəblərdə hazırlıqlar təkcə dərsliklərin və sinif otaqlarının təşkili ilə məhdudlaşmır, eyni zamanda müəllim heyətinin planlaşdırılması, tədris proqramlarının yenilənməsi və tələbələrin qəbul prosesi kimi bir çox aspektləri əhatə edir. Bu mərhələdə düzgün və vaxtında hazırlıq həm təhsil prosesinin səmərəliliyinə, həm də şagirdlərin yeni tədris ilinə adaptasiyasına birbaşa təsir göstərir. Bəs məktəblərdə hazırlıqlar hazırda hansı səviyyədədir və qarşıdakı tədris ilinə hazırlaşmaq üçün hansı addımlar atılır? SİA mövzu ilə bağlı təhsil eksperti Kamran Əsədov və təhsil eksperti Elşən Qafarovin fikirlərini öyrənib.





Yeni tədris ilinə az müddət qalmasına baxmayaraq hazırlıq işlərinin hansı mərhələdə olması ilə bağlı suallar hələ də açıq qalır deyə təhsil eksperti Kamran Əsədov qeyd edir: "Ənənəvi olaraq dərslərin başlanmasına sayılı günlər qalmış məktəblərdə təmir işlərinin yarımçıq qalması, dərsliklərin vaxtında paylanmaması, müəllim bölgüsünün tam başa çatmaması və valideynlərin narahatlığı təkrarlanan problemlərə çevrilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkə üzrə ümumtəhsil müəssisələrinin sayı 2024-cü ildə 4 470-dən artıqdır, burada təxminən 1,5 milyon şagird təhsil alır. Bu qədər böyük sistemin planlı şəkildə idarə olunması zəruri olduğu halda hazırlıqlar çox vaxt axırıncı günlərə saxlanılır. Halbuki "Təhsil haqqında Qanun"da dövlətin öhdəlikləri sırasında təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, dərsliklərlə tam təminat və müəllimlərlə komplektləşdirilmə açıq şəkildə göstərilib.

Əslində yeni tədris ili başlamadan aylarla əvvəl konkret işlərin görülməsi tələb olunur. Bu işlər arasında müəllimlərin dərs bölgüsünün vaxtında elan olunması, dərsliklərin məktəblərə çatdırılması, şagird axınına uyğun olaraq siniflərin düzgün komplektləşdirilməsi və məktəblərin təmir işlərinin yekunlaşdırılması dayanır. Təəssüf ki, bu proseslər çox zaman avqustun son günlərində belə davam edir. Məsələn, ötən il dərsliklərin paylanması sentyabrın əvvəlinə qədər çəkdi, bəzi məktəblərdə isə şagirdlər dərssiz günlərlə üzləşdilər. Nazirlik illərlə təkrarlanan bu problemi əvvəlcədən həll etməli, istehsaldan paylanmaya qədər olan zənciri şəffaf şəkildə idarə etməli idi.

Mənfi tərəflər açıq şəkildə göz önündədir. Müəllimlərin sayı azalır, 2022-2023-cü tədris ilində 151 634 nəfər müəllim fəaliyyət göstərirdisə, 2024-2025-ci ilin əvvəlində bu göstərici 146 381 nəfərə düşüb. Bu, yeni dərs ilində fənn çatışmazlığı, yüklərin qeyri-bərabər paylanması və keyfiyyətin aşağı düşməsi riskini artırır. Digər tərəfdən, məktəblərdə şagird sıxlığı da artmaqdadır. Paytaxt və iri şəhərlərdə bəzi məktəblərdə siniflərdə 40-50 şagird təhsil alır. Bu isə nə müəllimin pedaqoji imkanlarına, nə də "Ümumi təhsil haqqında Qanun"da təsbit olunan "təlimin keyfiyyət və bərabərlik prinsiplərinə" uyğun gəlir. Elm və Təhsil Nazirliyi bu məsələləri əvvəlcədən proqnozlaşdırmalı, demoqrafik göstəriciləri və regionlar üzrə şagird axınını təhlil edərək resurs planlamasını vaxtında həyata keçirməli idi. Amma hələ də belə bir strateji plan ictimaiyyətə açıqlanmayıb".

Ekspert eyni zamanda qeyd edir ki, müsbət tərəf kimi son illərdə bir sıra kənd məktəblərinin əsaslı təmiri və yeni məktəb binalarının istifadəyə verilməsini qeyd etmək olar. Həmçinin bəzi rayonlarda modul tipli məktəblər tikilib, bu da ucqar kəndlərdə uşaqların məktəbə çıxış imkanlarını genişləndirib. Amma bu addımlar ümumi sistemin problemlərini köklü şəkildə həll etmir, çünki planlı və ardıcıl strategiya yoxdur: "Dünya təcrübəsi göstərir ki, Finlandiya, Estoniya, Yaponiya kimi ölkələrdə yeni tədris ilinə hazırlıq prosesi ən azı 6 ay əvvəldən tamamlanır. Dərsliklər yay aylarında şagirdlərin əlində olur, müəllimlərin bölgüsü isə tətil başlamadan əvvəl açıqlanır. Bu həm valideynlərin, həm də müəllimlərin planlama imkanlarını artırır. Azərbaycanda isə valideynlər çox vaxt sentyabrın ilk günlərində məktəbdə hansı müəllimin dərs deyəcəyini, hansı dərsliklərin çatacağını öyrənirlər.

Nə dəyişəcək məsələsinə gəldikdə, mövcud idarəetmə üslubu davam edərsə, yeni tədris illəri hər dəfə eyni problemlərlə açılacaq. Müəllimlərin azalması fonunda fənn çatışmazlığı, siniflərdə sıxlıq və repetitor asılılığı daha da artacaq. Şagirdlər məktəbə deyil, kənar hazırlıqlara üstünlük verəcək, təhsil bərabərliyi pozulacaq. Nə dəyişməlidir sualının cavabı isə aydındır: hazırlıq prosesi planlı şəkildə aylar öncədən başa çatdırılmalı, resurslar düzgün bölüşdürülməli, demoqrafik proqnozlar nəzərə alınmalıdır. Dərslik təminatı vahid elektron izləmə sistemi ilə həyata keçirilməli, müəllim bölgüsü şəffaf və ədalətli qaydada yay aylarında elan olunmalıdır.

Elm və Təhsil Nazirliyi maarifləndirmə işini aparmır, valideyn və müəllimlərə vaxtında məlumat vermir, ictimaiyyəti hazırlıq prosesi barədə açıq şəkildə məlumatlandırmır. Nazirliyin uzunmüddətli planı və proqnozu yoxdur, hər il eyni problemlərin təkrarlanmasına imkan yaradır. Təhsil sistemində dəyişiklik yalnız ciddi strateji planlaşdırma, şəffaflıq və vaxtında hesabatlılıqla mümkündür. Əks halda yeni dərs ili yenə də qeyri-müəyyənlik, narazılıqlar və boşluqlarla açılacaq. Bu isə dövlətin üzərinə götürdüyü öhdəliklərə zidd olmaqla yanaşı, gələcək nəsillərin təhsil keyfiyyətinə birbaşa mənfi təsir göstərəcək".

Təhsil eksperti Elşən Qafarov açıqlamasında hal-hazırda yeni tədris ilinə hazırlıq çərçivəsində ümumtəhsil məktəblərində bir sıra problemlərin müşahidə olunduğunu deyir: "İlk növbədə, məktəblərin birləşdirilməsi məsələsi çətinliklər yaradır. Belə ki, birləşdirilən məktəblərdə müəllimlərin tam yerləşdirilməsi mümkün olmur. Müəllimlər çox hallarda yaşayış yerlərindən uzaq ərazilərə göndərilir ki, bu da ciddi narazılıqlara səbəb olur.

Digər problem isə pensiya yaşına çatmış müəllimlərlə bağlıdır. Hələ may ayında, xüsusilə ibtidai siniflər üzrə, üçüncü sinif müəllimlərinin yerləri vakansiyaya çıxarılmışdı. Bu müəllimlər əmək fəaliyyətini davam etdirən, lakin pensiya yaşına çatmış şəxslərdir. Avqustun 21-də Elm və Təhsil Nazirliyi qərar verdi ki, üçüncü sinif müəllimləri - yəni pensiya yaşına çatmış şəxslər - bir il də işləsinlər. Nəticədə, həmin yerlərə vakant olaraq gəlmiş yeni müəllimlərlə mövcud müəllimlər arasında ziddiyyət yaranıb.

Tədris planı təsdiq olunsa da, məktəblərdə vakansiyaların tam şəkildə doldurulması təmin edilmir. Bir çox hallarda imtahandan keçmiş müəllimlər təyin olunduqları məktəblərə gedib çıxmır. Bu, dərs bölgüsündə və dərs cədvəlinin tərtibində ciddi problemlərə səbəb olur. Yeni müəllimlərin bir qismi məktəbə yalnız sentyabrın 15-də və ya bir gün əvvəl gedəcəklərini düşünür. Bu da hazırlıq prosesinin mərkəzləşdirilmiş şəkildə aparılmadığı təəssüratını yaradır.

Bununla yanaşı, tədris ilinin müddəti ilə bağlı yayılan şayiələrin heç bir əsası yoxdur. Nazirlər Kabinetinin 24 fevral 2020-ci il tarixli, 66 nömrəli qərarında ümumtəhsil pilləsində tədris ilinin başlanma və bitmə tarixləri konkret şəkildə göstərilib. Həmin qərara əsasən, ölkə üzrə tədris ilinin müddətinin və tətil tarixlərinin dəyişdirilməsi yalnız Nazirlər Kabinetinin səlahiyyətindədir. Ayrı-ayrı məktəblərdə isə bu məsələ Elm və Təhsil Nazirliyinin səlahiyyətinə daxildir.

Məsələn, Formula 1 yarışının keçirildiyi ərazidə yerləşən 10-15 məktəbdə dərslərin müvəqqəti dayandırılması mümkündür. Lakin bu səbəbdən bütün ölkə üzrə tədris ilinin müddətinin dəyişdirilməsi real görünmür. Hətta dəyişiklik olsa belə, bu, yalnız Nazirlər Kabinetinin qərarı ilə mümkündür. Belə bir qərar olmadığı üçün hazırda tədris ilinin müddətinin dəyişdirilməsi barədə danışmaq əsassızdır".

***Günel Fərzəliyeva***

# Minsk prosesinin bağlanması ilə regionda yeni mərhələnin qapıları açılır

## Əsas istiqamət sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və nəqliyyat-kommunikasiya xətlərinin açılmasıdır

ATƏT Nazirlər Şurası tərəfindən ATƏT-in Minsk Prosesi və əlaqəli strukturlarının bağlanmasına dair qərar qəbul olunub. Xarici İşlər Nazirliyinin verdiyi məlumatda qeyd olunub ki, qərara əsasən, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin ABŞ Prezidentinin dəvəti və iştirakı ilə 8 avqust 2025-ci il tarixində Vaşinqton şəhərində baş tutmuş görüşü çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Fəaliyyətdə olan Sədrinə ünvanlanmış birgə müraciət məktubuna uyğun olaraq, ATƏT-in Minsk Prosesinin, ATƏT-in Fəaliyyətdə olan Sədrinin ATƏT-in Minsk Konfransının məşğul olduğu münaqişə üzrə Şəxsi Nümayəndəsinin və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun fəaliyyətinə 1 sentyabr tarixindən etibarən xitam verilib. Sözügedən strukturların bağlanmasından irəli gələn təşkilati və texniki məsələlərin 1 dekabr 2025-ci il tarixindən gec olmayaraq yekunlaşdırılması ATƏT Katibliyinə tapşırılıb. Qərarda həmçinin keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ATƏT çərçivəsində vaxtilə qəbul edilmiş bütün qərarlar qüvvədən düşmüş və etibarsız elan edilib. Beləliklə, vaxtilə Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması məqsədilə təsis edilmiş sözügedən institutların münaqişənin həlli nəticəsində yaranmış yeni şəraitdə lüzumsuz olması bütün ATƏT iştirakçı dövlətləri tərəfindən qəbul edilərək, həmin institutların bağlanması rəsmiləşdirilib. Sözügedən qərarın qəbulu, Azərbaycan Respublikasının vaxtilə işğal edilmiş əraziləri üzərində suveren nəzarətini və ərazi bütövlüyünü bərpa etməsi və bununla da Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması ilə bağlı reallığın və Azərbaycan tərəfindən irəli sürülmüş sülh gündəliyinin beynəlxalq müstəvidə qəbul edilməsinin göstəricisi olmaqla yanaşı, 8 avqust 2025-ci il tarixli Vaşinqton görüşündə Azərbaycan və Ermənistan arasında normallaşma prosesi ilə əlaqədar əldə edilmiş razılıqların praktiki icrası istiqamətində mühüm addımdır. Azərbaycan Respublikası bundan sonra da regionda sülhün və sabitliyin gücləndirilməsi istiqamətində beynəlxalq hüquqa əsaslanan prinsipial və ardıcıl mövqeyini davam etdirəcəkdir.









### Minsk Qrupunun tarixi və səmərəsizliyi

Minsk qrupunun tarixi əslində Qarabağ münaqişəsinin tarixindən ayrı deyil. 1992-ci ildə yaradılan bu mexanizm guya münaqişəyə sülh yolu ilə son qoymaq üçün nəzərdə tutulmuşdu. Amma onun fəaliyyəti illər keçdikcə açıq şəkildə göstərdi ki, əslində məqsəd işğal faktını uzatmaq, Ermənistanın təcavüzünü gizlətmək və regionu nəzarətdə saxlamaqdan ibarət olub. ABŞ, Fransa və Rusiyanın həmsədrliyi ilə fəaliyyət göstərən bu qrup Azərbaycan torpaqlarının işğaldan azad olunması istiqamətində bir addım belə atmadı. Əksinə, Ermənistanın təcavüzkar siyasətini müdafiə edərək qeyri-obyektiv mövqe sergiləməklə prosesləri dondurdu. Azərbaycanın ərazi bütövlüyünü birmənalı tanıyan BMT qətnamələrini icra etdirmək əvəzinə, Minsk qrupu faktiki olaraq status-kvonun qorunmasına çalışdı.




Bu mənada 8 avqust Vaşinqton görüşündə qəbul edilən qərar yalnız bir diplomatik protokol məsələ deyil, tarixi ədalətin bərpası və regionda yeni siyasi reallığın təsdiqi oldu. Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci ilin 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazanmaqla artıq hərbi-siyasi reallığı formalaşdırmışdı. Ermənistana vurulan ağır zərbə, işğalın sona çatdırılması, üçtərəfli bəyanatın imzalanması, ardınca Azərbaycan dövlətinin azad olunmuş ərazilərdə sürətli bərpa prosesinə başlaması göstərdi ki, Minsk qrupu artıq heç bir əhəmiyyət daşımır. Bununla belə, beynəlxalq hüquqi və siyasi sistemdə formal olaraq bu qurumun adının qalması Azərbaycanın mövqeyinə uyğun deyildi. Vaşinqton görüşü məhz bu məsələni birdəfəlik həll etdi.

### Sülh və inkişaf yolu

Minsk qrupunun buraxılması ilə Azərbaycan beynəlxalq aləmdə bir daha göstərdi ki, regionun gələcəyini öz iradəsi ilə müəyyənləşdirir. Bu qərarın həm də ABŞ Prezidenti Donald Trampın iştirakı ilə qəbul olunması simvolik əhəmiyyət daşıyır. Çünki Vaşinqton uzun illər bu qrupun həmsədrlərindən biri olub və indi məhz ABŞ-ın siyasi dəstəyi ilə onun fəaliyyətinə son qoyulması göstərir ki, Azərbaycanın mövqeyi beynəlxalq miqyasda tanınır və qəbul edilir. Bu, həm də Qərb və ABŞ siyasətində Cənubi Qafqaza baxışın dəyişməsinin bariz göstəricisidir.

Azərbaycan diplomatiyası həmişə bəyan edirdi ki, Minsk qrupu öz missiyasını itirib. Prezident İlham Əliyev hələ avqustun 27-də Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində də bildirmişdi ki, Minsk qrupunun ləğvi Azərbaycan tərəfindən danışıqların ilkin mərhələlərində irəli sürülmüş şərtlərdən biri idi. Ölkə rəhbərinin sözlərinə görə, Azərbaycanın məntiqi bundan ibarət idi ki, Minsk qrupu 1992-ci ildə ATƏT tərəfindən Qarabağ münaqişəsinin həlli üçün yaradılmışdı: "Ermənistan rəsmi şəkildə Qarabağı Azərbaycanın hissəsi kimi tanıdığını və münaqişənin başa çatdığını bildirdiyi halda, Minsk qrupunun hüquqi mövcudluğu absurddur. Əgər onu saxlamaqda israrlı olsalar, bu, onların Qarabağla bağlı hələ də ərazi iddialarının olduğunu göstərir. Bu, mövqeyimizin əsasında dayanan məntiq idi. Ermənistanı anlatmaq üçün çox vaxt və səy sərf etdik ki, hər iki tərəf Minsk qrupunun ləğvi ilə bağlı ATƏT-ə məktub yazsın və bu, Prezident Trampın iştirakı ilə baş verdi. Hazırda proses artıq başlayıb və bu, Minsk qrupunun hüquqi süqutunu ifadə edəcək, çünki o, artıq beş ildən çoxdur ki, fəaliyyətsizdir".

ATƏT Nazirlər Şurasının Minsk Prosesi və əlaqəli strukturların bağlanması barədə qərarı, eyni zamanda, beynəlxalq təşkilatların fəaliyyətinə də ciddi mesaj verdi. Çünki Minsk qrupu nümunəsi göstərdi ki, ədaləti bərpa etmək əvəzinə işğalçı dövlətin maraqlarına xidmət edən mexanizmlər tarix səhnəsindən silinməyə məhkumdur. Minsk prosesinin bağlanması ilə regionda yeni mərhələnin qapıları açılır. Bu mərhələdə əsas istiqamət sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat-kommunikasiya xətlərinin açılmasıdır. Azərbaycan bu istiqamətdə iradəsini açıq ifadə edir və konkret addımlar atır. Ermənistan isə artıq manevr imkanlarını itirib. Çünki nə Minsk qrupu var, nə də işğal siyasətinə bəraət qazandıran mexanizm. Ermənistan rəhbərliyi sülh müqaviləsinə imza atmaqdan başqa yolunun olmadığını anlayır.

Bu tarixi qərar həm də Azərbaycan xalqının uzun illər gözlədiyi bir ədalətin bərpasıdır. Çünki 30 ildən artıq müddətdə Minsk qrupu xalqımızın yaddaşında yalnız ədalətsizliyin, ikili standartların, diplomatik fırıldaqların simvolu olub. İndi isə bu səhifə bağlanıb və Azərbaycan xalqı öz dövlətinin siyasi iradəsi ilə fəxr edə bilər. Bu, həm də gələcək nəsillərə verilən mesajdır ki, ədalətsizlik üzərində qurulan heç bir mexanizm uzunömürlü ola bilməz.

Azərbaycanın bu uğuru yalnız region üçün deyil, həm də beynəlxalq münasibətlər sistemi üçün mühüm dərsdir. Bu göstərir ki, beynəlxalq hüquqa əsaslanan mövqe, milli maraqları müdafiə edən siyasət və güclü dövlət iradəsi istənilən süni mexanizmi iflasa uğrada bilər. Azərbaycan həm hərbi, həm diplomatik müstəvidə bunu sübut etdi.

### Sabitlik və davamlı əməkdaşlıq üçün zəmin

Nəticə etibarilə, ATƏT-in Minsk Prosesi və əlaqəli strukturlarının bağlanması Azərbaycanın münaqişə nəticəsində formalaşmış reallıqlar əsasında öz suverenliyini qorumaq və regionda sabitlik yaratmaq iradəsini nümayiş etdirir. Bu addım yalnız siyasi və diplomatik qələbə deyil, həm də uzunmüddətli sülhün təminatı üçün etibarlı zəminin yaradılması deməkdir. Azərbaycanın prinsipial mövqeyi və sistemli fəaliyyəti göstərir ki, beynəlxalq hüquqa əsaslanan mövqelər, milli maraqların qorunması və ardıcıl strategiya sayəsində tarixən ədalətsiz şəkildə qorunan mexanizmlər ləğv edilə bilər, region isə yeni, davamlı və konstruktiv əməkdaşlıq mərhələsinə qədəm qoyur.

***Nigar Orucova***

# Dövrün bəlası: xroniki yorğunluq sindromu

***Çətin dövrdə yaşayırıq. Həyatımız sürətləndirilmiş film kimidir, sanki dayanmadan, dincəlmədən hərəkətdəyik. Gərgin iş qrafikimiz, gərgin sosial həyatımız, yaşadığımız psixoloji narahatlıqlar sağlamlığımıza mənfi təsir göstərir. Son illərdə çox adamda müşahidə edilən xroniki yorğunluq, davamlı halsız olmaq, əslində illərin yüküdür. Bu problem bəzilərimizdə zaman keçdikcə ağırlaşır, işdə, gündəlik həyatda effektivliyini, məhsuldarlığını azaldır. Ağır xroniki yorğunluq yaşayan şəxslərə diaqnoz qoymaq da çətindir, çünki bəzən fiziki olaraq heç bir xəstəlikləri müşahidə edilmir, amma həm də xəstə kimi hiss edirlər.***



### Xroniki yorğunluq sindromu nədir?

Xroniki yorğunluq adekvat istirahətə baxmayaraq həmişə yorğun hiss etmək, iş məhsuldarlığının azalması, hər şeyə laqeydlik, sosial həyatdan uzaqlaşma, özünü bədbəxt hiss etmək kimi simptomlarla xarakterizə olunan psixoloji vəziyyətdir. Bəzi xəstələrdə yüngül yorğunluq və enerjisiz hiss etmək kimi özünü göstərə bilər. Daha ağır hallarda isə insanın hətta gündəlik həyat fəaliyyətlərini yerinə yetirə bilmir və bir növ qayğıya ehtiyacı olur.



Xroniki yorğunluq sindromu ümumiyyətlə yüksək səviyyəli məsuliyyət tələb edən vəzifələrdə, yüksək stresli karyeralarda və uzun, yorucu saatlarla işləyənlərdə müşahidə olunur. Sindrom psixoloji problem kimi xarakterizə olunsa da, psixi və fiziki təsirlərə də malikdir.

Xroniki yorğunluq sindromundan çox adam əziyyət çəksə də onun dəqiq səbəbi hələ müəyyən edilməyib. Bu vəziyyət adətən 30-50 yaş arası insanlarda müşahidə edilir, qadınlarda daha çox rastlanır. Sindromdan əziyyət çəkənlərin böyük əksəriyyəti əzələ və oynaq ağrıları yaşayır. Dəqiq səbəbi bilinməsə də, bir sıra amillər xəstəliyin inkişaf riskini artırır. Bunlardan ən əhəmiyyətlisi stressdir. Xroniki yorğunluq davamlı stress keçirən, gərgin iş həyatı olan, özünə kifayət qədər vaxt ayırmayan insanlarda psixoloji problemlərə səbəb ola bilər.

Bundan əlavə, uyğun olmayan, işığı bol, səs-küylü mühitlərdə yatan, gecələr davamlı olaraq oyanan, yuxu keyfiyyəti zəif olan insanlarda sindromun inkişafı daha çox müşahidə edilir. Bu cür yorğunluq hiss edən insanlar nə qədər dincəlsələr də, dinc hiss etmirlər. Bu səbəbdən 6 aydan çox davamlı yorğunluq hissi keçirən xəstələr psixoloji və fizioloji müayinələrdən keçməlidir.

Özünü yorğun və halsız hiss edən hər kəsdə xroniki yorğunluq sindromu olmur. Bu sindromu müəyyən etmək üçün xəstələr peşəkar tərəfindən müayinə olunmalıdırlar. Simptomların uzun müddət davam etməsi, bu yorğunluq hissinin qarın ağrısı, ürəkbulanma kimi fizioloji problemlərə səbəb olması xəstəliyin yaranma ehtimalını gücləndirir.

Xroniki yorğunluq sindromunun ümumi simptomları daimi yorğunluq və yuxululuq, əzələ və oynaq ağrısı, boğaz ağrısı, qarın ağrısı, enerji itkisi, bulantı və qusma, unutqanlıq və idrak performansının azalması, yuxu rejimində və keyfiyyətində azalma, zəifləmiş immunitet sistemi, bağırsaq pozğunluqları, sosiallaşmaqdan qorxma, daimi narahatlıq, depressiyadır.

Xroniki yorğunluq, qeyd etdiyimiz simptomlarla həkimə müraciət edən xəstələrdə aparılan müayinələr və diaqnostik testlər vasitəsilə asanlıqla müəyyən edilə bilər. Bu simptomlar bir çox psixoloji pozuqluqlarla oxşar olduğu üçün ətraflı anamnez aparılmalıdır.

Xroniki yorğunluq sindromunun qəti müalicəsi yoxdur. Müalicə planı ümumiyyətlə fərdi və xəstənin yaşadığı problemlərin tezliyi fonunda müəyyən edilir. Sindromla mübarizənin ən təsirli üsullarına müntəzəm sosiallaşmaq, problemləri həll etmək qabiliyyətini artırmaq, iş yükünü azaltmaq daxildir. Xəstə insan gündəlik ehtiyaclarını özü ödəyə bilirsə, xüsusi qayğıya ehtiyac duymursa dərmana da ehtiyac olmaya bilər. Ancaq ağır simptomlar yaşayan, sosial həyatından tamamilə uzaqlaşan və depressiya keçirən xəstələr həkim təyinatı ilə antidepresant dərman qəbul edə bilər. Bundan əlavə, həkim tərəfindən lazım olduğu təqdirdə, immun sistemini gücləndirmək, əzələ və oynaq ağrılarını azaltmaq və yuxu rejimini normallaşdırmaq üçün dərmanlar və psixoloji dəstək müalicələri tətbiq oluna bilər.

Psixoloji müalicə prosesində neqativ düşüncələrin müsbət düşüncəyə çevrilməsi, stress amillərinin müəyyən edilməsi və çətinliyin öhdəsindən gəlmək yolları haqqında peşəkar məsləhətləri tətbiq oluna bilər. Sindromu olan insanlar zövq aldıqları hobbilərə daha çox vaxt ayırsa bu sağalma prosesinə effektiv təsir edə bilər. Məsuliyyəti ağır, stressli işdən uzaqlamaq lazımdır, iş mühitlərini yenidən təşkil etməli, iş yerində sosial əlaqələr yaratmalı, ünsiyyətdən qaçmamalıdırlar.

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı "istiqaməti çərçivəsində hazırlanıb*



# "TikTok"da vətəndaşları qeyri-etik görüntülərlə şantaj edən şəxs saxlanılıb

**"TikTok"da "fake" qadın profilləri yaradaraq vətəndaşların qeyri-etik, intim görüntülərini əldə edib, onlardan hədə-qorxu ilə pul tələb edən şəxs polis əməkdaşları tərəfindən ifşa olunub, qanunsuz əməllərinin qarşısı alınıb. SİA xəbər verir ki, şübhəli şəxs xüsusi kiber üsul və vasitələrdən istifadə etməklə, domeni gizlədilən profillər vasitəsilə hədəf seçdiyi dövlət qulluğunda çalışan şəxslərin etibarını qazanıb, əldə etdiyi görüntüləri yayacağı ilə hədələyərək müxtəlif məbləğlərdə pul tələb edib.**




Vətəndaşların DİN-ə müraciətləri əsasında Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində aparılan araşdırmalarla həmin profilləri idarə edən 1998-ci il təvəllüdlü Şamil Fətullayev müəyyən edilərək saxlanılıb və məsuliyyətə cəlb olunub. İlkin məlumata görə, o, cinayətkar fəaliyyətə 700 manatdan başlayan qanunsuz pul tələbləri ilə başlayaraq məbləği daha da artırıb. Fakt üzrə Ş.Fətullayevə qarşı Cinayət Məcəlləsinin hədə-qorxu ilə tələb etmə maddəsi ilə ittiham elan olunub və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

DİN-in Mətbuat Xidmətindən bildirilib ki, sosial şəbəkələrdən istifadə edən hər bir şəxs diqqətli olmalı, yayılma ehtimalı olan şəxsi görüntüləri paylaşmamalıdır: "Əgər kimsə sosial şəbəkələrdə hədə və təhdidə məruz qalırsa, dərhal Daxili İşlər Nazirliyinə müraciət etməli və ictimai təhlükəli əməllərin qarşısının alınmasında təşəbbüskar olmalıdır". Məlumata görə, cinayət işi üzrə xeyli zərərçəkmiş var.

SON SƏHİFƏ
SƏS
3 sentyabr
2025-ci il

# “Qarabağ gələcəkdə perspektivli turizm bölgəsi olacaq”




“2020-ci ildə torpaqlarımız işğaldan azad olunan gündən etibarən, ölkə başçısının tapşırığı əsasında dövlətimiz tərəfindən bu bölgədə tikinti-bərpa işləri çox sürətlə aparılır”. Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının İdarə Heyətinin sədri Göydəniz Qəhrəmanov deyib.

Onun sözlərinə görə, ilk mərhələdə minadan təmizlənmə və təhlükəsizlik məsələləri, daha sonra isə paralel şəkildə tikinti-bərpa işləri, infrastrukturun qurulması və vətəndaşlarımızın ”Böyük Qayıdış” proqramı çərçivəsində rahatlıqla öz evlərinə dönmələri üçün zəruri şəraitin yaradılması həyata keçirildi. Bu, ilkin mərhələdə ən vacib məsələlərdən biri olub və çox yüksək sürətlə icra olunmaqdadır: ”Bildirmək istəyirəm ki, paralel olaraq turistlər üçün də bir çox işlər görülür. Bu bölgənin çox böyük turizm potensialı var və çox qısa müddətdə dövlətimiz tərəfindən artıq üç beynəlxalq hava limanı istifadəyə verilib. Logistika işləri sürətlə davam etdirilir, yeni yollar salınır. Eyni zamanda, bu günlərdə biz Bakı-Ağdam-Bakı dəmir yolu xətti üzrə qatarların ilk səfərini müşahidə etdik. Yeni otellər açılır. Ümumiyyətlə, bu bölgənin böyük həm yay, həm qış turizm imkanları var. Eyni zamanda müalicəvi turizm imkanları var. Bundan əlavə, son zamanlar dövlətimiz tərəfindən bir çox beynəlxalq tədbirlərin, sammitlərin məhz bu bölgədə keçirilməsi göstərir ki, Qarabağ gələcəkdə turizm baxımından çox perspektivli bir istiqamətə çevriləcək.

Düşünürəm ki, yaxın gələcəkdə bu bölgədə turistlərin sayında ciddi artım müşahidə edəcəyik. Təbii ki, ilk növbədə bizim vətəndaşlarımızın ora köçməsi, onların rifahının təmin olunması əsas prioritetdir. Amma bununla paralel şəkildə, qeyd etdiyim kimi, turizm üçün də çox böyük imkanlar bu bölgədə mövcud olacaq”.

*Günel Fərzəliyeva*


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# “Qalatasaray”dan rekord transfer!




Türkiyənin ”Qalatasaray” komandasının tarixində rekord transfer qeydə alınıb. AZƏRTAC xəbər verir ki, İstanbul təmsilçisi Uğurcan Çakır üçün ”Trabzonspor”a 33 milyon avro bonservis və əlavə olaraq 3 milyon avro bonus ödəyib. Bu məbləğ klubun tarixində rekord bonservis kimi qeydə alınıb. Qapıçı ”cim-bom”la 2029/2030-cu illər mövsümünün sonuna qədər müqavilə imzalayıb. Xatırladaq ki, gənc qolkiper keçmiş komandasına vida mesajı yollayıb. U.Çakır ”Trabzonspor”un daima onun qəlbində qalacağını və futbolçu koryerasında yeni səhifə açmaq istədiyini bəyan edib.

# Bu gün temperatur 38 dərəcəyə yüksələcək - XƏBƏRDARLIQ

***Sentyabrın 3-nə gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Cənub-şərq küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək.***



Havanın temperaturu gecə 20-24, gündüz 31-36 dərəcə isti olacaq. Atmosfer təzyiqi 754 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-75, gündüz 30-35 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi, gecə və səhər bəzi yerlərdə duman olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-23, gündüz 33-38, dağlarda gecə 13-18, gündüz 20-25 dərəcə isti olacaq

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**